Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 164

# HƏVARİLƏRİN İŞLƏRİ

## GİRİŞ

*«Həvarilərin İşləri»* Lukanın nəql etdiyi Müjdənin davamıdır. Onun əsas mövzusu İsanın ilk ardıcıllarının Müqəddəs Ruhla dolduğunu və Onun haqqındakı Müjdəni «Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin yer üzünün qurtaracağınadək hər yerdə» yaydıqlarını danışmaqdır (1:8).

Bu, Yəhudi xalqının arasında başlamış və sonralar bütün dünyaya yayılmış məsihçi imanının başlanğıcının tarixçəsidir. Bütün bu hadisələr imanlıların birlikdə yığıldığı yerdə, Əllinci Gün bayramı zamanı Müqəddəs Ruhun üzərlərinə enməsi ilə başlayır (2-ci fəsil). Müqəddəs Ruh kitabda təsvir olunmuş bütün hadisələr boyu imanlı cəmiyyətini, onun rəhbərlərini yönəldir və qüvvətləndirir. Müqəddəs Ruhun fəaliyyəti kitabı səciyyələndirən vacib mövzulardan biridir.

Sonrakı mühüm fəsillər isə imanlılar cəmiyyətinin addım-addım böyüyüb şaxələndiyini təsvir edir. İsa Məsihin həvariləri gəzib-dolaşaraq Müjdəni yayırdılar və Allahın möcüzələri onları müşayiət edib söylədikləri həqiqəti aşkar edirdi. Həvarilərin İşləri kitabında yazılmış hadisələr imanlıların həyatında İsa Məsihin Müjdəsinin qüdrətini nümayiş etdirir.

***Kitabın məzmunu:***

1:1-11 İsanın son əmri və göyə qaldırılması
1:12-26 Yəhudanın yerinə Mattiyanın seçilməsi
2:1-8:3 Yerusəlimdə Müjdə yayımı
8:4-12:25 Yəhudeya və Samariyada Müjdə yayımı
13:1-28:31 Paulun xidməti
- 13:1-14:28 Paulun ilk müjdəçi səyahəti
- 15:1-35 Yerusəlimdəki məşvərət
- 15:36-18:22 Paulun ikinci müjdəçi səyahəti
- 18:23-21:16 Paulun üçüncü müjdəçi səyahəti
- 21:17-28:31 Paulun Yerusəlimdə, Qeysəriyyədə və Romada həbs olunması

***İsanın göyə qaldırılması***

1 [1]Ey Teofil, birinci yazılarım İsanın
göyə qaldırıldığı günədək başladığı
işlər və öyrətməyə başladığı tam təlim
barəsindədir. [2]Göyə qaldırılmazdan
əvvəl İsa seçdiyi həvarilərə Müqəddəs
Ruh vasitəsilə əmrlər verdi. [3]Ölüm
əzabını çəkəndən sonra həvarilərə
çoxlu inandırıcı dəlillərlə Özünü diri
olaraq göstərdi. O, qırx gün ərzində
onlara görünərək Allahın Padşahlığı

**1:1-2** *Luka 1:1-4*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 165



barədə danışırdı. **4**İsa onlarla düzçörək kəsəndə bu əmri verdi: «Yerusəlimdən kənara çıxmayın, Atanın verdiyi, Məndən eşitdiyiniz vədin həyata keçməsini gözləyin. **5**Belə ki Yəhya su ilə vəftiz edirdi, amma siz bir neçə gündən sonra Müqəddəs Ruhla vəftiz olacaqsınız».

**6**Həvarilər bir yerə toplaşanda İsadan soruşdular: «Ya Rəbb, İsraildə Padşahlığı indimi bərpa edəcəksən?» **7**İsa cavab verdi: «Atanın hökmü ilə təyin olunan vaxtları və tarixləri bilmək sizin işiniz deyil. **8**Amma Müqəddəs Ruh üzərinizə enəndə siz qüvvə alacaqsınız və Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin yer üzünün qurtaracağınadək hər yerdə Mənim şahidlərim olacaqsınız». **9**İsa bunları deyəndən sonra həvarilərin gözləri qarşısında yuxarı qaldırıldı. Bir bulud İsanı götürüb onlardan gizlədi. **10**İsa göyə qalxanda onlar səmaya baxırdılar. Elə həmin an ağ libaslı iki kişi onların yanında peyda olub **11**soruşdu: «Ey Qalileyalılar, niyə səmaya baxa-baxa qalmısınız? Aranızdan götürülüb göyə qaldırılan İsanın aparıldığını necə gördünüzsə, elə də qayıdacaq».

### *Yəhudanın yerinə Mattiya seçilir*

**12**Bundan sonra həvarilər Zeytun dağı adlanan yerdən Yerusəlimə endilər. Bu dağ Yerusəlimin yaxınlığındadır, oraya olan məsafə Şənbə yolu[a] qədərdir. **13**Onlar şəhərə girib qaldıqları evin yuxarı otağına çıxdılar. Oradakılar bunlar idi: Peter, Yəhya, Yaqub, Andrey, Filip, Tomas, Bartalmay, Matta, Halfay oğlu Yaqub, Millətçi Şimon və Yaqub oğlu Yəhuda. **14**İsanın anası Məryəmlə qardaşları və başqa qadınlar da həvarilərlə birlikdə dayanmadan dua edirdi.

**15**Həmin günlərdə təxminən yüz iyirmi bacı-qardaşdan ibarət olan toplantı arasından Peter qalxıb dedi: **16**«Qardaşlar, İsanı tutanlara yol göstərən Yəhuda haqqında Müqəddəs Ruhun Davudun dili ilə əvvəlcədən dediyi Müqəddəs Yazı sözləri yerinə yetməlidir. **17**Yəhuda bizə qoşuldu, bu xidmətdən ona da pay düşdü. **18**Bu adam etdiyi haqsızlığın haqqına bir tarla satın aldı, sonra da oradan kəlləmayallaq aşıb qarnı yırtıldı və bağırsaqları töküldü. **19**Bütün Yerusəlim əhalisi bunu eşitdi və o yeri öz dillərində "Haqal-Dema", yəni "Qan tarlası" adlandırdı. **20**Axı Zəbur kitabında yazılıb:

"Məskəni viran olsun,
Kimsəsiz, boş qalsın"

və

"Vəzifəsini başqası tutsun".

**21-22**Buna görə də Rəbb İsanın aramıza gəlib-getdiyi müddət ərzində, yəni Yəhyanın vəftizindən başlayaraq Rəbb İsanın göyə qaldırıldığı günə qədər yanımızdakılardan bir kişi Onun dirilməsinə bizimlə birgə şahid olmalıdır». **23**Beləliklə, iki nəfəri – Barsabba çağırılan, həm də Yust adlanan Yusifi və Mattiyanı namizəd göstərdilər. **24**Sonra dua etdilər: «Ya Rəbb, Sən hamının ürəyindən xəbərdarsan. Bu iki nəfərdən birini seçib bizə göstər ki, **25**qoy onlardan biri bu

a **1:12** *Şənbə yolu* – təqribən 1 km.

**1:4** *Luka 24:49*
**1:5** *Mat. 3:11; Mark 1:8; Luka 3:16; Yəh. 1:33* **1:8** *Mat. 28:19; Mark 16:15; Luka 24:47-48*
**1:9** *Mark 16:19; Luka 24:50-51* **1:13** *Mat. 10:2-4; Mark 3:14-19; Luka 6:13-16* **1:18-19** *Mat. 27:3-8*
**1:20** *Zəb. 69:25; 109:8* **1:21-22** *Mat. 3:16; Mark 1:9; 16:19; Luka 3:21-22; 24:51*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 166



xidmətə – həvari vəzifəsinə keçsin.
Çünki Yəhuda öz yerini tutsun deyə
bu işi atdı». 26Sonra püşk atdılar. Püşk
Mattiyaya düşdü və o, həvari sırasına
– on bir nəfərin yanına keçdi.

### *Müqəddəs Ruhun gəlməsi*

2 1Əllinci Gün bayramı[a] zamanı
onların hamısı bir yerə yığılmışdı.
2Birdən güclü külək uğultusu kimi
göydən bir səs gəlib onlar oturan evin
hər tərəfini bürüdü. 3Onlara göründü
ki, nə isə alov kimi dillərə parçalana-
raq hər birinin üstünə düşür. 4Onların
hamısı Müqəddəs Ruhla doldu və Ru-
hun danışdırdığına görə başqa dillərdə
danışmağa başladılar.

5Bu vaxt səma altında mövcud olan
bütün millətlər arasından gələn mö-
min Yəhudilər Yerusəlimdə yaşayır-
dılar. 6Bu səs gələndə orada böyük
izdiham toplandı. Hamı öz dilində
danışıldığını eşidəndə çaş-baş qaldı.
7Mat qalaraq heyrət içində dedilər:
«Bu danışanların hamısı Qalileyalı
deyilmi? 8Bəs necə olur ki, biz ha-
mımız öz ana dilimizi eşidirik? 9Biz
Parfiyalılar, Midiyalılar, Elamlılar,
Mesopotamiyada, Yəhudeyada, Kap-
padokiyada, Pontda və Asiya vila-
yətində,[b] 10Frigiyada, Pamfiliyada,
Misirdə və Liviyanın Kirenaya yaxın
bölgələrində yaşayanlar, Romada
yaşayan 11Yəhudilər və Yəhudi dinini
qəbul edənlər, Kritlilər, Ərəblər
eşidirik ki, onlar bizim dilimizdə
Allahın əzəmətli işlərindən danışır».
12Hamı mat qalıb çaşqınlıq içində bir-
birindən soruşurdu: «Bu nədir?»
13Bəziləri də rişxəndlə deyirdi: «Bun-
lar şirin şərabdan sərxoş olublar».

### *Peterin Əllinci Gün bayramında etdiyi vəz*

14Peter On Bir həvari ilə bərabər
irəli çıxdı və izdihama ucadan nida
etdi: «Ey Yəhudilər və Yerusəlimin
bütün sakinləri, sizə bildirirəm, sözlə-
rimə qulaq asın. 15Bu adamlar fikirləş-
diyiniz kimi sərxoş deyil. Hələ günün
üçüncü saatıdır.[c] 16Bu gördükləriniz
Yoel peyğəmbər vasitəsilə əvvəlcədən
deyilən hadisədir. 17Allah dedi ki, axır
zamanda

“Bütün bəşər üzərinə Ruhumdan
tökəcəyəm.
Oğullarınız və qızlarınız
peyğəmbərlik edəcək,
Cavanlarınız görüntülər,
Ağsaqqallarınızsa röyalar görəcək.
18O günlərdə qul və qarabaşların
üzərinə də
Ruhumdan tökəcəyəm,
Onlar da peyğəmbərlik edəcək.
19Yuxarıda – göylərdə xariqələr,
Aşağıda – yerdə əlamətlər
göstərəcəyəm:
Qan, alov və tüstü buxarları
görünəcək.
20Rəbbin möhtəşəm və əzəmətli günü
gəlməzdən əvvəl
Günəş qaranlığa və ay qan rənginə
dönəcək.
21Rəbbin adını çağıran hər kəs xilas
olacaq”.

22Ey İsraillilər, bu sözlərimə qulaq
asın! Bildiyiniz kimi Allahın aranızda
Nazaretli İsa vasitəsilə yaratdığı mö-

a **2:1** *Əllinci Gün bayramı* – yunan dilində *pentikosti* sözü olub Pasxa bayramından sonra əllinci gün qeyd edilir.

b **2:9** *Asiya vilayəti* indiki Türkiyə ərazisində olmuş bir vilayətdir.

c **2:15** *Üçüncü saat* – hazırkı vaxtla səhər saat doqquz.

**2:1** *Lev. 23:15-21; Qanun. 16:9-11* **2:16-21** *Yoel 2:28-32*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 167



cüzələr, xariqələr və əlamətlər aydın
göstərdi ki, O, Allahdan gələn Şəxsdir.
23Allahın əzəldən bilib müəyyən etdiyi
məqsədə uyğun olaraq siz bu Şəxsi
qanunsuzlara təslim edib onların əli ilə
çarmıxa mıxlatdıraraq öldürdünüz.
24Allah isə ölüm əzablarını kəsərək
Onu diriltdi. Çünki Onu ölüm tutub
saxlaya bilməzdi. 25Davud da Onun
barəsində demişdi:

“Rəbbə əbədilik üz tutmuşam,
Sağımda olduğu üçün sarsılmaram.
26Elə bunun üçün qəlbim sevinir,
dilim şad olur,
Cismim belə, ümidlə yaşayır.
27Çünki məni ölülər diyarına
atmazsan,
Mömin insanını çürüməyə
qoymazsan.
28Mənə həyat yolunu öyrədirsən,
Hüzurunda mənə doyunca sevinc
verirsən”.

29Qardaşlar, sizə cəsarətlə deməli-
yəm ki, doğrudan da, ulu babamız
Davud ölüb və dəfn olunub. Onun
qəbri bu günə qədər buradadır.
30Davud peyğəmbər idi və öz nəslin-
dən bir Nəfəri[a] onun taxtına çıxarmaq
üçün Allahın and içərək Davuda vəd
etdiyini bilirdi. 31Ona görə Məsihin
dirilməsini əvvəlcədən görüb barəsində
demişdi ki, Allah

Onu ölülər diyarına atmaz,
Cismini çürüməyə qoymaz.

32Allah bu İsanı ölümdən diriltdi və
hamımız buna şahid olduq. 33Allah
Onu ucaltdı və sağ əlində oturtdu. O,
vəd edilən Müqəddəs Ruhu Atadan
götürüb sizin görüb-eşitdiyiniz kimi
üstümüzə tökdü. 34Davud özü göylərə
qalxmadı, amma belə dedi:

“Rəbb mənim Ağama dedi:
35‹Mən düşmənlərini ayaqlarının
altına kətil kimi salanadək
Sağımda otur›”.

36Ona görə də qoy bütün İsrail xalqı
möhkəm bilsin ki, Allah sizin çarmıxa
çəkdiyiniz bu İsanı həm Rəbb, həm də
Məsih təyin etmişdir».

37Bu sözlər ona qulaq asanların
ürəyinə ox kimi sancıldı. Onlar həm
Peterdən, həm də o biri həvarilərdən
soruşdular: «Qardaşlar, bəs biz nə
edək?» 38Peter onlara cavab verdi:
«Tövbə edin, hamınız İsa Məsihin adı
ilə vəftiz olun. Onda günahlarınız
bağışlanacaq və bəxşiş olaraq Müqəd-
dəs Ruhu alacaqsınız. 39Çünki bu vəd
siz, övladlarınız, uzaqdakıların hamısı
– Allahımız Rəbbin çağırdığı hər kəs
üçündür». 40Peter başqa çox söz deyib
onlara xəbərdarlıq etdi və yalvardı:
«Bu əyri nəsildən xilas olun». 41Onun
sözünü qəbul edənlər[b] vəftiz oldu. O
gün üç min nəfərə yaxın insan imanlı-
lara qoşuldu. 42Onlar da özlərini həva-
rilərin təliminə, hər şeydə şərik olma-
ğa, birgə çörək bölməyə və duaya həsr
etdilər.

### *İmanlılar arasında birlik*

43Bütün imanlıların ürəyinə qorxu
düşdü. Həvarilər vasitəsilə çoxlu xari-
qələr və əlamətlər göstərilirdi. 44İman
edənlərin hamısı bir yerdə idi, bütün
əmlaklarından da birgə istifadə edirdi.
45Onlar mallarını, mülklərini satıb pu-
lu hər kəsə ehtiyacına görə paylayır-

a **2:30** *Öz nəslindən bir Nəfəri* – bəzi əlyazmalarda *Onun soy-kökündən olan Məsihi dirildib.*
b **2:41** *Qəbul edənlər* – bəzi əlyazmalarda *sevinə-sevinə qəbul edənlər.*
**2:23** *Mat. 27:35; Mark 15:24; Luka 23:33; Yəh. 19:18* **2:24** *Mat. 28:5-6; Mark 16:6; Luka 24:5*
**2:25-28** *Zəb. 16:8-11* **2:30** *2Şam. 7:12-13; 1Pad. 17:11-12; Zəb. 132:11* **2:31** *Zəb. 16:10*
**2:34-35** *Zəb. 110:1* **2:44-45** *Həv. 4:32-35*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 168



dılar; **46**hər gün məbədə yığılmaqda
davam edir, evlərdə sevinə-sevinə,
səmimi qəlbdən çörək bölüb yeyirdilər.
**47**Onlar Allaha həmd edir və bütün
xalq qarşısında lütf qazanırdılar. Rəbb
isə hər gün insanları xilas edir və
imanlılara qoşurdu.

### *Şikəst dilənçinin şəfası*

**3** **1**Bir gün Peterlə Yəhya doqquzun-
cu saatda,[a] dua vaxtı məbədə ge-
dirdilər. **2**Bu zaman ayaqları anadan-
gəlmə şikəst olan bir kişi məbədin
Gözəl adlı qapısına gətirilirdi. Hər gün
bu adamı ona görə oraya gətirərdilər
ki, məbədə gəlib-gedənlərdən dilənə-
rək nəzir alsın. **3**O, məbədə girən
Peterlə Yəhyanı görüb onlardan nəzir
istədi. **4**Peterlə Yəhya ona diqqətlə
baxdı. Peter ona dedi: «Bizə bax». **5**Bu
kişi onlardan nə isə umaraq gözlərini
onların üzünə dikdi. **6**Peter ona dedi:
«Nə qızılım, nə də gümüşüm var ki,
sənə verim. Nəyim varsa, sənə onu
verirəm. Nazaretli İsa Məsihin adı ilə
qalx, gəz». **7**Sonra sağ əlindən tutub
onu qaldırdı. Bu kişinin topuqları və
ayaqları dərhal qüvvət aldı. **8**Atılaraq
ayağa qalxdı və yeriməyə başladı.
Qaçıb tullana-tullana, Allaha həmd
edərək onlarla bərabər məbədə girdi.
**9**Bütün xalq gördü ki, bu kişi yeriyir və
Allaha həmd edir. **10**Onun məbədin
Gözəl qapısında oturub dilənən kişi
olduğunu tanıyanda hamı ondakı də-
yişikliyə mat qalıb heyrətə düşdü.

### *Peterin məbəddəki vəzi*

**11**Bu kişi[b] Peterin və Yəhyanın əlin-
dən yapışdı. Heyrətə düşən bütün xalq
onlara tərəf, Süleymanın eyvanı ad-
lanan yerə qaçdı. **12**Bunu görən Peter
xalqa nida etdi: «Ey İsraillilər, burada
heyrətamiz nə var ki? Niyə gözlərinizi
bizə dikib baxırsınız? Elə bil biz öz
qüvvəmizlə, öz möminliyimizlə bu
kişinin yeriməsinə səbəb olmuşuq.
**13**İbrahimin Allahı, İshaqın Allahı və
Yaqubun Allahı, ata-babalarımızın
Allahı Qulu İsanı izzətləndirib. Siz
Onu sataraq Pilatın qarşısında rədd
etdiniz. Pilat Onu azad etmək üçün
qərar vermişdi, **14**amma siz Müqəddəs
və Saleh Olanı rədd edib bir qatilin
azad edilməsini istədiniz. **15**Siz Həyat
Banisini öldürdünüz, amma Allah Onu
ölülər arasından diriltdi. Biz bunun
şahidləriyik. **16**Gördüyünüz və tanıdı-
ğınız bu kişi İsanın adı sayəsində,
Onun adına olan imanla sağaldı. İsa
vasitəsilə olan imanla bu kişi hamı-
nızın gözü qarşısında tam şəfa tapdı.

**17**İndi, ey qardaşlar, bilirəm ki,
rəhbərləriniz kimi siz də bunu bilmə-
dən etmisiniz. **18**Amma Allah peyğəm-
bərlərin dili ilə Öz Məsihinin əzab
çəkməsi barədə əvvəlcədən bəyan
etdiyini yerinə yetirdi. **19**Beləliklə,
günahlarınız silinsin deyə tövbə edib
Allaha tərəf dönün ki, **20**Rəbbin hü-
zurunda rahatlıq vaxtı tapasınız və O
da sizin üçün əvvəlcədən təyin olunan
Məsihi, yəni İsanı göndərsin. **21**Çünki
Allahın qədimdən bəri müqəddəs
peyğəmbərlərinin dili ilə məlum etdiyi
kimi hər şeyin yenidən hazırlanacağı
vaxtacan İsanın səmada qalması la-
zımdır. **22**Musa[c] belə demişdi: “Alla-

a **3:1** *Doqquzuncu saat* – hazırkı vaxtla günortadan sonra saat üç.
b **3:11** *Bu kişi* – bəzi əlyazmalarda *Şikəstlikdən sağalan bu kişi.*
c **3:22** *Musa* – bəzi əlyazmalarda *Musa ata-babalarımıza.*
**3:13** *Çıx. 3:15* **3:14** *Mat. 27:15-23; Mark 15:6-14; Luka 23:13-24; Yəh. 19:12-15*
**3:22-23** *Qanun. 18:15,18,19; Lev. 23:29*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 169



hınız Rəbb sizin üçün öz soydaşlarınız
içərisindən mənim kimi bir peyğəmbər
yetirəcək. Sizə nə söyləyəcəksə, ona
qulaq asın”. 23“Bu peyğəmbərə qulaq
asmayan hər adam xalqı arasından
ayrılıb məhv ediləcək”. 24Şamueldən
başlayaraq bütün peyğəmbərlər bu
günləri elan etdilər. 25Siz də peyğəm-
bərlərin varisləri, Allahın ata-babala-
rınızla kəsdiyi Əhdin varislərisiniz.
Allah İbrahimə demişdi: “Yer üzünün
bütün tayfaları sənin nəslinin vasitəsilə
xeyir-dua alacaq”. 26Allah hər birinizi
pis əməllərinizdən döndərmək və
xeyir-dua vermək üçün Öz Qulunu[a]
dirildərək əvvəlcə sizin yanınıza gön-
dərdi».

### *Peterlə Yəhya Ali Şuranın qarşısında*

4 1Kahinlər, məbəd mühafizəçiləri-
nin başçısı və sadukeylər xalqa
vəz edən Peterlə Yəhyanın üstünə
getdi. 2Çünki bu həvarilərin xalqı
öyrətməsinə, İsaya şamil edərək ölülər
arasından dirilməni bəyan etməsinə qı-
cıqlandılar. 3Onları tutdular və axşam
olduğu üçün sabahkı günə qədər zin-
danda saxladılar. 4Lakin onların sö-
zünə qulaq asanlardan bir çoxu iman
etdi. Beləliklə, iman edən kişilərin sayı
beş minə qədər çatdı.

5Ertəsi gün Yəhudilərin rəhbərləri,
ağsaqqalları və ilahiyyatçıları Yerusə-
limə toplaşdı. 6Baş kahin Xanan, Qa-
yafa, Yəhya, İsgəndər və baş kahinin
nəslindən olanların hamısı orada idi.
7Peterlə Yəhyanı onların qarşısına
gətirib soruşdular: «Siz bunu hansı
qüvvə ilə, kimin adı ilə edirsiniz?» 8O
zaman Peter Müqəddəs Ruhla dolub
dedi: «Ey xalqın rəhbərləri və ağsaq-
qalları! 9Əgər bu gün biz bir xəstəyə
etdiyimiz yaxşılığa və onun necə sa-
ğalmasına görə sorğu-suala çəki-
liriksə, 10hamınız, bütün İsrail xalqı
bilsin ki, bu adam sizin çarmıxa
çəkdiyiniz, lakin Allahın ölülər ara-
sından diriltdiyi Nazaretli İsa Məsihin
adı ilə qarşınızda sağlam durub. 11Siz
“bənnaların rədd etdiyi daş guşədaşı
olan” həmin İsadır. 12Ondan başqa
heç kimdə xilas yoxdur. Çünki səma
altında biz insanlara verilən başqa bir
ad yoxdur ki, onun vasitəsilə xilas
olaq».

13Onlar Peter və Yəhyanın cəsarə-
tini görəndə, onların savadsız, sadə
insanlar olduğunu biləndə heyrətə
düşdülər, amma tanıdılar ki, onlar İsa
ilə birgə olmuşdular. 14Şəfa tapan
adam Peter və Yəhya ilə birgə onların
gözləri qarşısında durmuşdu, buna
görə onların əleyhinə heç nə deyə
bilmədilər. 15Ali Şuranın üzvləri onla-
ra bayıra çıxmağı əmr edəndən sonra
aralarında müzakirəyə başlayıb 16de-
dilər: «Bu adamlara nə edək? Bütün
Yerusəlim əhalisinə aydın olub ki, bu
adamların əli ilə əhəmiyyətli bir əlamət
göstərilib və biz bunu dana bilmərik.
17Amma bu xəbərin xalq arasında
daha çox yayılmasının qarşısını almaq
üçün onlara hədə-qorxu gələk ki,
bundan sonra bu Adı çəkib heç kimə
heç nə deməsinlər». 18Beləcə onları
çağırıb əmr verdilər ki, İsanın adını
bəyan etmək və bu adla hər hansı bir
təlim öyrətmək qadağandır. 19Lakin
Peterlə Yəhya cavab verib dedilər:
«Özünüz qərar verin, Allaha deyil, sizə
qulaq asmaq Allahın gözündə nə
qədər doğrudur? 20Axı eşidib-gördük-

a **3:26** *Qulunu* – bəzi əlyazmalarda *Qulu İsanı.*
**3:25** *Yar. 12:3; 22:18; 26:4; 28:14* **4:11** *Zəb. 118:22*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 170



lərimizi deməyə bilmərik». 21Ali Şura-
nın üzvləri onlara cəza vermək üçün
imkan tapa bilmədiklərinə görə onları
bir daha hədələyəndən sonra azadlığa
buraxdılar. Çünki bütün xalq baş ve-
rən hadisəyə görə Allahı izzətləndirdi.
22Bu əlamət vasitəsilə sağalan adamın
qırxdan artıq yaşı var idi.

### *İmanlılar Allahdan cəsarət istəyir*

23Azadlığa buraxılan Peter və Yəh-
ya öz yoldaşlarının yanına gəlib başçı
kahinlərlə ağsaqqalların sözlərini
onlara çatdırdılar. 24Yoldaşları bunu
eşidərkən bir nəfər kimi Allaha nida
etdilər: «Ey Pərvərdigarımız, yeri,
göyü, dənizi və bunların içindəki hər
şeyi yaradan Sənsən. 25Müqəddəs Ruh
vasitəsilə Öz qulun atamız Davudun
dili ilə belə dedin:

“Nə üçün millətlər belə hirslənir,
Ümmətlər boş şeylər düşünür?
26Dünya şahları yığışır,
Hökmdarlar Rəbbə və Onun məsh
etdiyinə qarşı birləşir”.

27Həqiqətən, Hirod və Ponti Pilat
başqa millətlər və İsrail xalqı ilə
birlikdə Sənin məsh etdiyin müqəddəs
Qulun İsanın əleyhinə bu şəhərdə[a]
toplaşdı ki, 28Sənin əvvəldən qərar
verdiyin, Sənin əlində və niyyətində
olan şeyləri həyata keçirsin. 29İndi, ya
Rəbb, onların etdikləri hədə-qorxuya
bax! Biz qullarına güc ver ki, Sənin
sözlərini tam cəsarətlə yayaq. 30Xəs-
tələri sağaltmaq üçün əlini uzat və
müqəddəs Qulun İsanın adı ilə əlamət-
lər və xariqələr göstər». 31Onlar duala-
rını qurtaran kimi toplandıqları yer
lərzəyə gəldi və onların hamısı Mü-
qəddəs Ruhla dolub Allahın kəlamını
cəsarətlə yaymağa başladı.

### *İlk imanlıların birlik içində həyatı*

32İmanlıların hamısı canbir qəlbdə
idi. Heç kim öz əmlakına «bu mə-
nimdir» demir, bütün əmlaklarından
birgə istifadə edirdi. 33Həvarilər Rəbb
İsanın dirilməsi barədə böyük qüvvə
ilə şəhadət edirdi və hamısının üzərinə
bol-bol lütf ehsan olunurdu. 34Onla-
rın arasında heç kim yoxsul deyildi.
Çünki onların arasında torpaq və ev
sahibi olanlar mülkünü satıb pulunu
gətirər, 35həvarilərin ixtiyarına verər-
di. Bu da hər kəsə ehtiyacına görə
paylanardı. 36Məsələn, Kiprdə ana-
dan olan, həvarilərin Barnaba adlan-
dırdığı (mənası «Təsəlli oğlu») Levili
Yusif 37sahib olduğu torpaq sahəsini
sataraq pulunu gətirib həvarilərin
ixtiyarına verdi.

### *Xananya və Sapfira*

5 1Xananya adında bir kişi arvadı
Sapfira ilə razılığa gəlib bir mülk
satdı. 2O, pulun bir hissəsini özünə
götürüb qalan hissəsini həvarilərin ix-
tiyarına verdi. Arvadının da bu işdən
xəbəri var idi. 3Peter ona dedi: «Xa-
nanya, niyə ürəyinə Şeytanı buraxıb
Müqəddəs Ruha yalan söyləyərək
torpağın pulunun bir hissəsini özünə
götürdün? 4Bu torpaq satılmamışdan
əvvəl sənin deyildimi? Sən onu satan-
dan sonra da pul sənin ixtiyarında
deyildimi? Bu nə niyyətdir, ürəyində
tutmusan? Sən insanlara deyil, Allaha
yalan satdın». 5Xananya bunları eşi-
dən kimi yerə yıxıldı və canı çıxdı.

---

a **4:27** *Bu şəhərdə* – bəzi əlyazmalarda bu sözlər yoxdur.

**4:24** *Çıx. 20:11; Neh. 9:6; Zəb. 146:6* **4:25-26** *Zəb. 2:1-2* **4:27-28** *Mat. 27:1-2; Mark 15:1;*
**4:27-28** *Luka 23:1,7-11; Yəh. 18:28-29* **4:32** *Həv. 2:44-45*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 171



Bunu eşidən hər kəsi böyük bir vahimə
bürüdü. 6Gənclər gəlib Xananyanın
meyitini kəfənə bürüdülər və aparıb
dəfn etdilər.

7Bundan təxminən üç saat sonra
Xananyanın arvadı içəri daxil oldu.
Onun olub-keçənlərdən heç bir xəbəri
yox idi. 8Peter ondan soruşdu: «Mənə
söylə, torpağı bu qiymətəmi satdınız?»
Qadın cavab verdi: «Bəli, o qiymətə».
9Peter ona dedi: «Niyə əlbir olub Rəb-
bin Ruhunu sınamaq istədiniz? Budur,
ərini dəfn edənlərin ayaq səsləri qapı
ağzındadır, indi də səni aparmağa
gəlirlər». 10Qadın həmin an Peterin
ayaqları qarşısına yıxıldı və canı çıxdı.
İçəri daxil olan gənclər gördülər ki, o
da ölüb. Onlar onu götürüb ərinin
yanında dəfn etdilər. 11Bütün iman-
lılar cəmiyyətini və bu hadisəni eşi-
dənlərin hamısını böyük bir vahimə
bürüdü.

### *Həvarilər çox adama şəfa verdi*

12Həvarilər vasitəsilə xalq arasında
çox əlamətlər və xariqələr göstərilirdi.
Bütün imanlılar Süleymanın eyvanına
yığılardı. 13Xalqın gözündə böyük
nüfuz qazansalar da, kənardan heç
kim onlara qoşulmağa cürət etmirdi.
14Buna baxmayaraq, get-gedə daha
çox qadın və kişi Rəbbə iman gətirirdi.
15Buna görə də Peter yoldan keçəndə
heç olmasa kölgəsi xəstələrin üstünə
düşsün deyə xalq öz xəstələrini döşək
və çarpayı ilə birlikdə çıxarıb küçələrə
qoyardı. 16Yerusəlimin ətraf şəhərlə-
rində yaşayanlar da axın-axın gələr, öz
xəstələrini və natəmiz ruhdan əzab
çəkənləri gətirərdi. Onların hamısı şəfa
tapardı.

### *Həvarilər təqib olunur*

17Bu, baş kahini və yanındakıların
hamısını, yəni sadukey təriqətinə mən-
sub olanları hərəkətə gətirdi, çünki
qısqanclıqları aşıb-daşırdı. 18Ona görə
də həvariləri tutub ümumi zindana at-
dılar. 19Amma Rəbbin mələyi gecənin
bir vaxtında gəlib zindanın qapısını
açdı, onları bayıra çıxarıb dedi: 20«Ge-
din, məbəddə durun və camaata yeni
həyatla bağlı sözlərin hamısını deyin».
21Həvarilər bunu eşidəndə səhər tez-
dən məbədə daxil olub təlimlərini
öyrətməyə başladılar.

Baş kahin və yanındakılar gəlib Ali
Şuranı – İsrailin bütün ağsaqqallar
məclisini çağırdı ki, bir yerə yığılsınlar.
Onlar həvariləri gətirtmək üçün müha-
fizəçiləri zindana göndərdilər. 22Lakin
mühafizəçilər gəlib zindanda həvariləri
tapa bilmədi və geri qayıdıb belə xəbər
verdilər: 23«Gördük ki, zindan bağ-
lıdır, tamamilə nəzarət altındadır və
gözətçilər qapıda dayanıb. Amma
qapıları açanda içəridə heç kimi tapa
bilmədik». 24Bu sözləri eşidən məbəd
mühafizəçilərinin başçısı ilə başçı ka-
hinlər «Bu işin sonu necə qurtaracaq?»
deyə çaşıb-qaldılar. 25Elə bu zaman
kimsə onların yanına gəlib xəbər verdi:
«Baxın, zindana saldığınız adamlar
məbəddə dayanıb camaata təlim öyrə-
dir». 26Bu vaxt başçı ilə mühafizəçilər
gedib həvariləri gətirdilər. Xalqın on-
ları daşqalaq etməsindən qorxduqları
üçün güc tətbiq etmədilər.

27Onlar həvariləri Ali Şuranın qar-
şısına gətirdilər. Baş kahin onlardan
soruşdu: 28«Bu adla təlim öyrətməyi
sizə qəti qadağan etmədikmi? Amma

**5:27-28** *Mat. 27:25*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 172



siz təliminizi bütün Yerusəlimə yaydınız və o Adamın qanını bizim boynumuza yükləmək istəyirsiniz». 29Peter və başqa həvarilər belə cavab verdi: «İnsana deyil, Allaha itaət etmək daha vacibdir. 30Ata-babamızın Allahı sizin çarmıxa çəkib[a] öldürdüyünüz İsanı diriltdi. 31İsrailə günahlarından tövbə və bağışlanma imkanı vermək üçün Allah Onu Bani və Xilaskar olaraq Öz sağ tərəfinə qaldırdı. 32Bu şeylər barədə biz şahidik, Allahın Özünə itaət edənlərə verdiyi Müqəddəs Ruh da şahiddir».

33Onlar bunu eşidəndə çox qəzəbləndi və həvariləri öldürmək istədilər. 34Lakin bütün xalqın hörmətini qazanmış Qanun müəllimi olan Qamliel adlı bir farisey Ali Şurada ayağa qalxdı və əmr etdi ki, bu adamları[b] qısa müddətə bayıra çıxarsınlar. 35O, Ali Şuranın üzvlərinə belə dedi: «Ey İsraillilər, bu insanlara nə edəcəyiniz barədə yaxşı-yaxşı fikirləşin. 36Bir qədər bundan əvvəl Tevda özü barəsində yüksək iddiada olaraq ortaya çıxdı və ona təxminən dörd yüz nəfər qoşuldu. Lakin bu kişi öldürüldü, bütün tərəfdarları darmadağın edildi və bu hərəkat yatırıldı. 37Sonra siyahıyaalma zamanı Qalileyalı Yəhuda ortaya çıxdı və camaatı ardınca apardı. O da öldü və tərəfdarlarının hamısı darmadağın edildi. 38İndiki iş barəsində sizə onu deyirəm ki, bu adamlardan əl çəkin və azad buraxın. Əgər bu hərəkat, bu iş insandandırsa, məhv olub gedəcək. 39Yox, əgər Allahdandırsa, bu adamların işini məhv edə bilməzsiniz. Allaha qarşı çıxanların vəziyyətinə belə, düşə bilərsiniz». Onlar Qamlielin sözünə baxdılar, 40həvariləri içəri çağırıb qamçılatdılar və əmr etdilər ki, İsanın adını çəkərək heç nə danışmasınlar. Sonra onları azad etdilər.

41Həvarilər bu ad uğrunda təhqirə layiq görüldükləri üçün sevinərək Ali Şuranın önündən ayrıldılar. 42Onlar hər gün məbəddə və evlərdə təlim öyrətməkdən, İsanın Məsih olması barədə Müjdəni yaymaqdan əl çəkmədilər.

### *Yeddi köməkçi*

6 1O günlərdə – şagirdlərin çoxaldığı vaxtda yunanca danışan Yəhudilər ibranicə danışan Yəhudilərdən şikayət etməyə başladılar. Çünki gündəlik yardım paylananda onların dul qadınlarını nəzərə almamışdılar. 2Ona görə On İki həvari bütün şagirdləri bir yerə yığıb belə dedi: «Allahın kəlamını vəz etmək işini atıb maddi işlərlə məşğul olmağımız düzgün deyil. 3Ey qardaşlar, aranızda etibar qazanmış, Ruh və hikmətlə dolu olan yeddi kişi seçin ki, onları bu işə təyin edək. 4Biz isə özümüzü duaya və Allahın kəlamını yaymağa həsr edək». 5Bu sözlər bütün toplantının xoşuna gəldi. Stefanı, Filipi, Proxoru, Nikanoru, Timonu, Parmenanı və Yəhudi dinini qəbul edən Antakyalı Nikolanı seçdilər. Stefan iman və Müqəddəs Ruhla dolu bir kişi idi. 6Bunları həvarilərin qarşısına çıxardılar. Həvarilər də dua edib onların üzərinə əl qoydular.

7Allahın kəlamı yayılır, Yerusəlimdə şagirdlərin sayı xeyli artır və bir çox kahinlər də bu imana tabe olurdu.

---

a **5:30** *Çarmıxa çəkib* – hərfi tərcümədə *ağacdan asıb.*

b **5:34** *Bu adamları* – bəzi əlyazmalarda *həvariləri.*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 173



### *Stefanın tutulması*

8Lütf və qüvvə ilə dolu olan Stefan xalq arasında böyük xariqə və əlamətlər göstərirdi. 9Belə olanda Azadlar Sinaqoqu adlanan sinaqoqun bəzi üzvləri, Kirenalılardan, İsgəndəriyyəlilərdən, Kilikiyadan və Asiya vilayətindən bəzi insanlar Stefana qarşı çıxıb onunla mübahisəyə başladı. 10Amma Stefanın sözündəki hikmətin və Ruhun qarşısında dayana bilmədilər. 11Onda bir neçə nəfəri şirnikləndirdilər ki, belə desinlər: «Bu adamın həm Musaya, həm də Allaha qarşı küfr dolu sözlər dediyini eşitmişik». 12Beləliklə, xalqı, ağsaqqalları və ilahiyyatçıları da təşvişə saldılar. Stefanın üstünə gəlib onu tutdular və Ali Şuranın qarşısına gətirdilər. 13Gətirdikləri yalançı şahidlər onun üzünə durub dedilər: «Bu adam dayanmadan bu Müqəddəs məkana və Qanuna qarşı danışır. 14"Nazaretli İsa bu məkanı darmadağın edəcək və Musadan bizə əmanət qalan adətləri dəyişəcək" dediyini özümüz eşitmişik». 15Ali Şurada oturanların hamısı Stefana diqqətlə baxanda gördü ki, onun üzü bir mələyin üzünə bənzəyir.

### *Stefanın nitqi*

7 1Baş kahin Stefandan soruşdu: «Bunlar doğrudurmu?» 2Stefan belə cavab verdi: «Qardaşlar və atalar, məni dinləyin! Atamız İbrahim hələ Mesopotamiyada ikən Xaranda məskunlaşmazdan əvvəl izzətli Allah ona göründü. 3Ona belə dedi: "Öz torpağından, qohumlarının arasından çıx, sənə göstərəcəyim torpağa get". 4Buna görə İbrahim Xaldeylilərin ölkəsini tərk edib Xarana köçdü. Atasının ölümündən sonra Allah onu oradan da götürüb sizin indi yaşadığınız bu ölkəyə gətirdi. 5Burada ona irs olaraq bir qarış belə, torpaq vermədi. Amma İbrahimin o zaman hələ övladı olmasa da, Allah bu torpağı mülk olaraq ona və onun gələcək nəslinə verəcəyini vəd etmişdi. 6Allah ona belə dedi: "Nəslin yad ölkədə qərib olacaq, orada olan millətə köləlik edəcək və onlara dörd yüz il zülm ediləcək". 7"Ancaq onların köləlik edəcəkləri milləti Özüm cəzalandıracağam" dedi Allah, "bundan sonra oradan çıxacaqlar" və "bu yerdə Mənə ibadət edəcəklər". 8Sonra Allah onunla sünnətlə bağlı Əhd kəsdi. Beləliklə də, İbrahim İshaqın atası olarkən onu səkkiz günlük olanda sünnət etdi. Bundan sonra İshaqdan Yaqub, Yaqubdan da on iki ulu babamız törədi.

9Bu ulu babalarımız paxıllıqdan Yusifi qul kimi Misirə satdı. Lakin Allah Yusifə yar idi. 10Onu bütün əziyyətlərdən qurtardı və ona hikmət verərək Misir hökmdarı fironun gözündə lütf qazandırdı. Firon onu Misirin və öz sarayında olan bütün xalqın rəhbəri təyin etdi. 11Sonra bütün Misir və Kənan torpağı aclıq və böyük əziyyətlərlə üzləşdi. Bu ata-babalarımız yemək tapa bilmədi. 12Yaqub eşidəndə ki, Misirdə taxıl var, bu ata-babalarımızı birinci dəfə oraya göndərdi. 13Onlar ikinci dəfə Misirə gələndə Yusif qardaşlarına özünü tanıtdı. Bununla da firon Yusifin ailəsi ilə

---

**7:2-3** *Yar. 12:1* **7:4** *Yar. 11:31; 12:4* **7:5** *Yar. 12:7; 13:15; 15:18-21; 17:8*
**7:6-7** *Yar. 15:13-14; Çıx. 3:12* **7:8** *Yar. 17:10-14; 21:2-4; 25:26; 29:31-35:18*
**7:9-10** *Yar. 37:11,28; 39:2,21; Yar. 41:39-41* **7:11** *Yar. 42:1-2* **7:13** *Yar. 45:1-3; 47:2-10*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 174



tanış oldu. **14**Yusif atası Yaquba xəbər
göndərib onunla birgə bütün qohum-
larını – yetmiş beş nəfəri çağırtdırdı.
**15**Beləliklə, Yaqub Misirə getdi. Özü
ilə bu ata-babalarımız da orada öldü.
**16**Onların cəsədləri sonradan Şekemə
gətirildi və Şekemdə İbrahimin Xamor
övladlarından bir neçə gümüşə satın
aldığı qəbirdə dəfn olundu.

**17**Allahın İbrahimə bəyan etdiyi və-
din həyata keçdiyi vaxt yaxınlaşanda
Misirdəki xalqımızın sayı bir xeyli
çoxalmışdı. **18**Axırda Misirdə Yusifi
tanımayan yeni bir padşah taxta çıxdı.
**19**Bu adam soydaşlarımıza hiylə işlət-
di, zorakılıqla ata-babalarımızı məc-
bur etdi ki, yeni doğulan körpələrini
sağ qalmasın deyə bayıra atsınlar.
**20**Bu dövrdə son dərəcə gözəl bir körpə
olan Musa doğuldu. O, üç ay atasının
evində bəsləndi. **21**Sonra o da bayıra
atıldı. Onu fironun qızı tapıb özünə
övlad etdi və öz oğlu kimi böyütdü.
**22**Musa Misirlilərin bütün elmi bilikləri-
rinə bağlı tərbiyə alıb söz və əməlində
güclü bir şəxsiyyət oldu.

**23**Musa qırx yaşına çatanda ürəyin-
də soydaşları İsrail övladlarının vəziy-
yətini yaxından bilmək arzusu oyandı.
**24**Onlardan birinin zərər çəkdiyini
görəndə Musa onu müdafiə etdi. Zərər
vuran Misirlini öldürərək əzilən insa-
nın intiqamını aldı. **25**O belə fikirləşdi:
"Soydaşlarım dərk edəcəklər ki, mə-
nim vasitəmlə Allah onları xilas edir".
Amma onlar bunu dərk etmədilər.
**26**Ertəsi gün Musa dalaşan iki İsraillini
görəndə onları barışdırmaq istədi və
dedi: "Ay kişilər, siz soydaşsınız,
niyə bir-birinizə zərər vurursunuz?"
**27**Lakin soydaşına zərər vuran kişi
Musanı itələyib dedi: "Səni bizim
üstümüzə kim başçı və hakim qoyub?
**28**Yoxsa dünən Misirlini öldürdüyün
kimi məni də öldürmək fikrindəsən?"
**29**Bu sözə görə Musa qaçdı. O, Mid-
yan torpağında, qürbətdə yaşadı və
orada iki oğul atası oldu.

**30**Qırx il keçəndən sonra Musa Sina
dağının yaxınlığındakı səhrada olanda
mələk ona bir kol arasından od-alov
içərisində göründü. **31**Musa gördüklə-
rinə heyrətləndi. Baxmaq üçün oraya
yaxınlaşanda Rəbbin səsini eşitdi:
**32**"Mən ata-babalarının Allahı – İb-
rahimin, İshaqın və Yaqubun Alla-
hıyam". Musa qorxusundan lərzəyə
gəlib baxmağa belə, cəsarət etmədi.
**33**Rəbb ona dedi: "Ayaqlarından ça-
rıqlarını çıxart, çünki durduğun yer
müqəddəs torpaqdır. **34**Həqiqətən,
Mən Misirdə olan xalqımın əziyyətini
gördüm, fəryadlarını eşitdim və onları
qurtarmaq üçün endim. İndi get, Mən
səni Misirə göndərirəm".

**35**Bu, həmin Musadır ki, onu rədd
edib demişdilər: "Səni bizim üstümüzə
kim başçı və hakim qoyub?" Amma
Allah Musanı bir kol arasında görü-
nən mələyin əli ilə başçı və qurtarıcı
olaraq göndərdi. **36**O, xalqı Misirdən
çıxaran, həm orada, həm Qırmızı
dənizdə, həm də qırx il ərzində səhrada
xariqə və əlamətlər yaradan insan idi.
**37**İsrail övladlarına "Allah məni yetir-
diyi kimi sizin üçün öz soydaşlarınız
içərisindən bir peyğəmbər yetirəcək"[a]
deyən bu Musadır. **38**Bu, həmin adam-

a **7:37** *Yetirəcək* – bəzi əlyazmalarda *yetirəcək. Ona qulaq asın.*

**7:14** *Yar. 45:9-11,17-18; 46:27* **7:15** *Yar. 46:1-7; 49:33* **7:16** *Yar. 23:3-16; 33:19; 50:7-13;*
**7:16** *Yeşua 24:32* **7:17-18** *Çıx. 1:7-8* **7:19** *Çıx. 1:10-11,22* **7:20-21** *Çıx. 2:2-10*
**7:23-29** *Çıx. 2:11-15* **7:29** *Çıx. 18:2-4* **7:30-34** *Çıx. 3:1-10* **7:36** *Çıx. 7:3; 14:21; Say. 14:33*
**7:37** *Qanun. 18:15,18* **7:38** *Çıx. 19:1-20:17; Qanun. 5:1-33*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 175



dır ki, Sina dağında onunla danışan
mələklə və ata-babalarımızla birgə
səhradakı cəmiyyətdə olmuşdu. O,
canlı sözlər almışdı ki, bizə versin.
39Ata-babalarımızsa Musanın sözünə
baxmaq istəmədi, onu rədd etdi və
Misirə qayıtmağı arzuladılar. 40Ha-
runa dedilər: "Bizim üçün allahlar
düzəlt ki, qabağımızca getsinlər. Çünki
bizi Misir torpağından çıxaran ada-
mın – bu Musanın başına nə iş gəl-
diyini bilmirik!" 41O günlərdə dana
şəklində bir büt düzəldib ona qurban
gətirdilər və öz əlləri ilə düzəltdikləri
bu büt üçün şənlik qurdular. 42Buna
görə Allah ata-babalarımızdan üz
döndərib onları tərk etdi ki, səma
cisimlərinə ibadət etsinlər. Peyğəm-
bərlərin kitabında da belə yazılıb:

"Ey İsrail nəsli,
Qırx il çöldə olanda Mənə qurban
və təqdimlər gətirmişdinizmi?
43Səcdə edəsiniz deyə düzəltdiyiniz
Molekin çadırını,
Tanrınız Refanın ulduz bütünü
gəzdirdiniz.
Elə buna görə də sizi
Babilin o tayına sürgünə
aparacağam".

44Səhrada ata-babalarınızın Şəha-
dət çadırı var idi. Musa bunu onunla
danışan Allahın əmr etdiyi kimi,
gördüyü nümunəyə əsasən düzəltmişdi.
45Şəhadət çadırını əvvəlki nəsildən
təhvil alan ata-babalarımız Yeşuanın
başçılığı ilə başqa millətlərin mülkünü
ələ keçirəndə çadırı da özləri ilə
gətirmişdilər. Allah Özü millətləri ata-
babalarımızın qarşısından qovdu. Şə-
hadət çadırı Davudun dövrünə qədər
qaldı. 46Allahın lütfünü qazanan Da-
vud yalvardı ki, Yaqubun nəsli[a] üçün
bir məskən qura bilsin. 47Lakin Allaha
ev tikən Süleyman oldu. 48Amma
Haqq-Taala əllə tikilən evlərdə ya-
şamaz. Peyğəmbərin dediyi kimi

49Rəbb belə deyir:
"Göylər Mənim taxtımdır,
Yer ayaqlarımın altındakı kətildir.
Mənim üçün nə cür ev tikəcəksiniz,
Dincələcəyim yer harada olacaq?
50Bütün bunları Mənim əlim
yaratmadımı?"

51 Ey dikbaş, həm ürəkləri, həm də
qulaqları "sünnət" edilməmiş insanlar,
ata-babanız kimi siz də həmişə
Müqəddəs Ruhun əleyhinə çıxırsınız.
52Ata-babalarınızın təqib etmədiyi
peyğəmbər varmı? Onlar Saleh Olanın
zühuru barədə əvvəlcədən xəbər ve-
rənləri belə, öldürdülər. Sizsə bu Saleh
Olana xəyanət edərək Onu qətlə ye-
tirdiniz. 53Mələklər vasitəsilə verilən
Qanunu aldınız, lakin ona riayət et-
mədiniz».

### *Stefanın öldürülməsi*

54Ali Şuranın üzvləri bu sözləri
eşidəndə çox qəzəbləndilər və Stefana
dişlərini qıcırtdılar. 55Müqəddəs Ruh-
la dolan Stefan isə gözlərini göyə dikib
Allahın ehtişamını və Allahın sağında
dayanan İsanı gördü. 56O dedi: «Ba-
xın, mən göylərin yarıldığını və Bəşər
Oğlunun Allahın sağında dayandığını
görürəm». 57Onlar qulaqlarını tutub
haray qopardılar və hamısı birlikdə
Stefanın üstünə hücum çəkdilər. 58Onu
şəhərdən kənara çıxarıb daşqalaq
etdilər. Stefanın əleyhinə şahidlik

a **7:46** *Yaqubun nəsli* – bəzi əlyazmalarda *Yaqubun Allahı.*

**7:40-41** *Çıx. 32:1-6* **7:42-43** *Amos 5:25-27* **7:44** *Çıx. 25:9,40; İbr. 8:5* **7:45** *Yeşua 3:14-17; 18:1*
**7:46** *2Şam. 7:1-16; 1Saln. 17:1-14* **7:47** *1Pad. 6:1-38; 2Saln. 3:1-17* **7:48-50** *Yeş. 66:1-2*
**7:51** *Yeş. 63:10*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 176



edənlər öz üst geyimlərini Şaul adlı bir
gəncin ayaqları altına qoydular.
59Stefan üstünə yağan daşlar altında
belə yalvarırdı: «Ya Rəbb İsa, ruhumu
qəbul et». 60Sonra diz çöküb ucadan
nida etdi: «Ya Rəbb, bunu onlara
günah sayma». Bunu deyəndən sonra
gözlərini bu həyata yumdu.

### *Şaul imanlıları təqib edir*

8 1Stefanın qətlindən Şaul da razı
qalmışdı.

O gün Yerusəlimdə olan imanlılar
cəmiyyətinə qarşı güclü təqib başladı.
Həvarilərdən başqa bütün imanlılar
pərən-pərən düşüb Yəhudeya və Sa-
mariyanın hər tərəfinə yayıldı. 2Bəzi
mömin kişilər isə Stefanı dəfn etdi və
onun üçün dərin hüznlə yas saxladılar.
3Amma Şaul imanlılar cəmiyyətini
dağıtmağa başladı. Belə ki o, evdən-
evə gedərək qadın-kişi bilmədən iman-
lıları sürüyüb zindana salırdı.

### *Filip Samariyada*

4Pərən-pərən düşən imanlılar hər
yerdə Allahın kəlamını – Müjdəni
yayırdı. 5Filip də Samariya şəhərinə
gəlib Məsihi vəz edirdi. 6Filipi eşidib,
göstərdiyi əlamətləri görən izdiham
onun sözlərinə birlikdə diqqət yetirir-
di. 7Natəmiz ruha tutulan çox adam-
dan bu ruhlar bərkdən çığıraraq çıxır,
çox iflic və ayaqları şikəst olanlar şəfa
tapırdı. 8Ona görə bu şəhərdə bol se-
vinc var idi.

### *Cadugər Şimon*

9Amma bu şəhərdə bundan əvvəl
cadugərlik edən və Samariya millətini
mat qoyan Şimon adlı bir kişi var idi.
O özünü böyük bir şəxsiyyət kimi
təqdim edirdi. 10Böyüklü-kiçikli hər
kəs ona diqqətlə qulaq asır və belə
deyirdi: «Böyük adlanan Allahın
qüvvəsi budur». 11Onun cadugərliyi
hamını çoxdan mat qoymuşdu. Buna
görə də ona diqqətlə qulaq asırdılar.
12Amma Filip Allahın Padşahlığı və
İsa Məsihin adı ilə bağlı Müjdəni
yayanda sözlərinə iman gətirdilər və
kişilər də, qadınlar da vəftiz oldular.
13Şimon özü də iman gətirdi. Vəftiz
olduqdan sonra Filipin yanından ay-
rılmadı. Göstərilən əlamət və möcüzə-
lər Şimonu mat qoydu.

14Yerusəlimdə qalan həvarilər Sa-
mariyalıların Allahın kəlamını qəbul
etdiklərini eşidəndə Peterlə Yəhyanı
onların yanına göndərdi. 15Peterlə
Yəhya oraya çatanda dua etdi ki,
Samariyalı imanlılar Müqəddəs Ruhu
alsınlar. 16Çünki Ruh hələ onların heç
birinin üzərinə enməmişdi, sadəcə ola-
raq Rəbb İsanın adı ilə vəftiz olmuş-
dular. 17Sonra Peterlə Yəhya əllərini
onların üstünə qoydu və onlar Mü-
qəddəs Ruhu aldılar. 18Həvarilərin əl
qoyması ilə Ruhun verildiyini görən
Şimon onlara pul təklif edərək 19dedi:
«Mənə də belə bir səlahiyyət verin.
Əlimi kimin üstünə qoysam, Müqəd-
dəs Ruhu alsın». 20Peter ona dedi:
«Pulun da yox olsun, sən də! Ona görə
ki sən Allahın ənamını pulla əldə edə
bilmək xəyalına düşmüsən. 21Bu işdə
sənin nə haqqın var, nə payın. Çünki
Allahın qarşısında ürəyin düz deyil.
22Bu pisliyin üçün tövbə et, Rəbbə yal-
var. Bəlkə ürəyinin bu niyyəti bağış-
lanar. 23Görürəm ki, səndə acı zəhər
var və haqsızlığın əsirisən». 24Şimon
ona cavab verdi: «Mənim üçün Rəbbə
siz yalvarın ki, dediklərinizin heç biri

**8:3** *Həv. 22:4-5; 26:9-11*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 177



mənim başıma gəlməsin».
25Peterlə Yəhya şəhadət edib Rəb-
bin kəlamını söyləyəndən sonra Sama-
riyalıların yaşadığı xeyli kəndlərdə
Müjdəni yaya-yaya Yerusəlimə qayı-
dırdılar.

### *Filip və Həbəşli hərəmağası*

26Bu zaman Rəbbin bir mələyi
Filipə belə dedi: «Dur, cənuba tərəf,
Yerusəlimdən Qəzzəyə düşən yola –
səhra yoluna çıx». 27Filip qalxıb getdi.
Yolda Həbəşli bir hərəmağası ilə rast-
laşdı. Bu, kandakinin, yəni Həbəşlilə-
rin mələkəsinin vəzirlərindən biri idi.
O, mələkənin bütün xəzinəsinə cavab-
deh idi. Yerusəlimə ibadət etmək üçün
gəlmişdi. 28Arabasına oturub geri qa-
yıdarkən Yeşaya peyğəmbərin kitabını
oxuyurdu. 29Ruh Filipə dedi: «Get, bu
arabaya çatıb yanında qal». 30Filip
qaça-qaça arabanın yanına gəldi və
eşitdi ki, hərəmağası Yeşaya peyğəm-
bərin kitabını oxuyur. Ondan soruşdu:
«Görəsən oxuduğunu başa düşürsən-
mi?» 31Hərəmağası ona dedi: «Əgər
mənə yol göstərən yoxdursa, bunu ne-
cə başa düşmək olar?» Sonra Filipdən
xahiş etdi ki, arabaya minib onun
yanında otursun. 32O, Müqəddəs Ya-
zılardan bu hissəni oxuyurdu:

«Kəsilməyə aparılan qoyun kimi,
Qırxanların qabağında dilsiz quzu
kimi
Ağzını açmadı.
33Alçaldığı zaman ədalətdən
məhrum oldu.
Onun nəslini kim təsvir edə bilər?
Onun həyatı yer üzündən
götürülür».

34Hərəmağası Filipdən soruşdu: «Xa-
hiş edirəm, deyin, burada peyğəmbər
kimdən bəhs edir, özündən, yoxsa
başqasından?» 35Bundan sonra Filip
sözə başlayıb danışdı və Müqəddəs
Yazıların bu hissəsindən başlayıb İsa
barədə olan Müjdəni bəyan etdi. 36On-
lar yol gedə-gedə gəlib su olan yerə
çatdılar. Hərəmağası dedi: «Burada su
var. Mənim vəftiz olmağıma nə isə
mane olurmu?» 37[a] 38Sonra əmr etdi
ki, araba dayansın. Filip hərəmağası
ilə birgə suya girdi. Beləliklə, Filip
hərəmağasını vəftiz etdi. 39Sudan
çıxanda Rəbbin Ruhu[b] Filipi götürüb
oradan uzaqlaşdırdı. Filipi bir daha
görməyən hərəmağası sevinə-sevinə
yoluna davam etdi. 40Filip bir də
gördü ki, Aşdod şəhərinə gəlib-çıxıb.
O, Qeysəriyyəyə çatanacan bütün
şəhərləri gəzib-dolaşaraq Müjdəni
yaydı.

### *İsa Şaulla danışır*

9 1Şaul Rəbbin şagirdlərinə qarşı
hələ də ölüm hədələri yağdırırdı.
Baş kahinin yanına gedib 2ondan Də-
məşq sinaqoqlarına yazılan məktublar
istədi ki, orada İsa yolunu[c] tutan kişi
və qadınlardan kimi tapsa, əl-qolunu
bağlayıb Yerusəlimə gətirmək üçün
səlahiyyəti olsun. 3Dəməşqə yollanıb
oraya yaxınlaşanda birdən göydən
gələn bir işıq onun ətrafında parladı.
4Şaul yerə yıxıldı və bir səs eşitdi, ona
deyirdi: «Şaul, Şaul, niyə Məni təqib
edirsən?» 5Şaul ona dedi: «Ey Ağam,
Sən kimsən?» O cavab verdi: «Mən

a **8:36-37** *Mane olurmu?* – bəzi əlyazmalarda *mane olurmu?»* [37] *Filip dedi: «Əgər bütün qəlbinlə iman edirsənsə, mümkündür». Hərəmağası cavab verdi: «İsa Məsihin Allahın Oğlu olduğuna inanıram».*

b **8:39** *Rəbbin Ruhu* – bəzi əlyazmalarda *Müqəddəs Ruh hərəmağasının üstünə endi. Rəbbin mələyi isə.*

c **9:2** *İsa yolunu* – hərfi tərcümədə *Yolu.*

**8:32-33** *Yeş. 53:7-8*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 178



sənin təqib etdiyin İsayam. **6**Qalx aya-
ğa, şəhərə get və nə etmək lazımdırsa,
sənə deyiləcək». **7**Şaulla birlikdə yola
çıxan adamlar yerlərindəcə susub qal-
mışdı. Səsi eşitsələr də, heç kimi görə
bilmədilər. **8**Şaul yerdən qalxdı, amma
gözlərini açanda heç nə görə bilmirdi.
Sonra onun əlindən tutub Dəməşqə
apardılar. **9**Üç gün ərzində Şaulun göz-
ləri görmədi və o nə yedi, nə də içdi.

**10**Dəməşqdə İsanın şagirdlərindən
Xananya adlı bir nəfər var idi. Rəbb
görüntü vasitəsilə «Xananya!» deyə
çağırdı. O cavab verdi: «Bəli, ya
Rəbb!» **11**Rəbb ona dedi: «Qalx, "Düz
Küçə" adlanan küçəyə get və Yəhu-
danın evində adı Şaul olan Tarsuslu
bir adamı soruş. Hal-hazırda orada
dua edir. **12**O, görüntüdə görüb ki,
yanına Xananya adlı bir kişi gəlib
onun üzərinə əllərini qoyur ki, gözləri
açılsın». **13**Xananya cavab verdi: «Ya
Rəbb, bu kişi barədə çoxlarından
eşitmişəm ki, Yerusəlimdə Sənin
müqəddəslərinə nə qədər pislik edib.
**14**Burada Sənin adını çəkənlərin hər
birinin əl-qolunu bağlamaq üçün başçı
kahinlərdən səlahiyyət alıb». **15**Amma
Rəbb ona dedi: «Get! Başqa millətlərə,
padşahlara və İsrail övladlarına Öz
adımı bəyan eləmək üçün bu adam
seçdiyim alətdir. **16**Mənim adım uğ-
runda çəkəcəyi əzabın nə qədər böyük
olduğunu ona göstərəcəyəm». **17**Bun-
dan sonra Xananya gedib həmin evə
girdi və əllərini Şaulun üstünə qoyub
dedi: «Qardaşım Şaul, Rəbb, yəni
bura gələrkən yolda sənə görünən İsa
məni göndərdi ki, sənin gözlərin açılsın
və Müqəddəs Ruhla dolasan». **18**O
andaca Şaulun gözlərindən sanki
pulcuqlar töküldü və Şaul təkrar gör-
məyə başladı. O qalxdı və vəftiz oldu.
**19**Sonra yemək yeyib taqətə gəldi.

### *Şaul Dəməşqdə və Yerusəlimdə*

Bir neçə gün Şaul Dəməşqdə olan
şagirdlərin yanında qaldı. **20**Dərhal
sinaqoqlarda İsanın Allahın Oğlu
olduğunu vəz etməyə başladı. **21**Onu
eşidənlərin hamısı mat qalıb deyirdi:
«Yerusəlimdə bu adı çəkənləri dağı-
dan adam bu deyilmi? Buraya beləlləri-
ni əl-qolunu bağlayıb başçı kahinlərin
yanına aparmağa gəlməmişdimi?»
**22**Şaul isə gündən-günə qüvvətlənirdi.
İsanın Məsih olmasına dair sübutlar
göstərməklə Dəməşqdə yaşayan Yəhu-
diləri çaş-baş saldı.

**23**Aradan xeyli gün keçdi. Yəhudi-
lər Şaulu öldürmək üçün sui-qəsd
hazırladı. **24**Amma onların bu qəsdi
haqqında xəbər Şaula çatdı. Yəhudilər
onu öldürmək üçün gecə-gündüz
şəhərin qapılarında pusqu qururdu.
**25**Amma Şaulun şagirdləri gecə olan
kimi onu götürüb bir səbətin içinə
qoyaraq şəhər divarlarından aşağı en-
dirdilər.

**26**Şaul Yerusəlimə çatanda oradakı
şagirdlərə qoşulmağa çalışdı, lakin
onların hamısı Şauldan qorxur və
inanmırdılar ki, o, İsanın şagirdidir.
**27**Amma Barnaba onu götürüb həvari-
lərin yanına apardı və onlara açıqladı
ki, Şaul yolla gedəndə Rəbbi necə
görüb, Rəbb onunla necə danışıb, o,
Dəməşqdə İsanın adını necə cəsarətlə
bəyan edib. **28**Beləliklə, Şaul onların
yanında qalıb Yerusəlimdə hər yerə
bir gedib-gəlir və orada da Rəbbin
adını cəsarətlə bəyan edirdi. **29**O yu-

**9:23-25** *2Pad. 11:32-33*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 179



nanca danışan Yəhudilərlə söhbət edə-
rək mübahisə edirdi. Onlar isə Şaulu
öldürmək istəyirdi. 30İmanlı bacı-
qardaşlar isə bunu öyrənəndə Şaulu
Qeysəriyyəyə aparıb oradan Tarsusa
göndərdilər.

31Beləcə bütün Yəhudeya, Qalileya
və Samariyadakı imanlılar cəmiyyəti
əmin-amanlığa çatdı. İnkişaf edən və
Rəbb qorxusu içində yaşayan cəmiy-
yət Müqəddəs Ruhun ürəkləndirməsi
ilə sayca artırdı.

### *Eneya və Tabitanın sağaldılması*

32Bu zaman hər yanı dolaşan Peter
Lodda yaşayan müqəddəslərin yanına
gəldi. 33Orada Eneya adlı bir nəfərə
baş çəkdi. Eneya iflic olmuşdu və
səkkiz il idi ki, yataqda idi. 34Peter ona
dedi: «Eneya, İsa Məsih səni sağaldır.
Qalx, yatağını yığışdır». Eneya dərhal
ayağa qalxdı. 35Lod və Şaronda
yaşayanların hamısı bu adamı görüb
Rəbbə tərəf döndü.

36Yafoda İsanın şagirdləri arasında
Tabita adlı bir qadın var idi. «Tabita»
«Ceyran» deməkdir. Bu qadın həmişə
xeyirxah işlər görür və yoxsullara
kömək edirdi. 37Bu vaxtlarda o xəs-
tələnib öldü. Onun meyitini yuyub
yuxarı mərtəbədəki otağa qoydular.
38Lod Yafoya yaxın idi, ona görə də
Peterin Lodda olduğunu eşidən şa-
girdlər iki kişini onun yanına gön-
dərdilər və onlar gəlib xahiş etdilər:
«Vaxt itirmədən yanımıza gəl». 39Pe-
ter durub onlarla getdi. Yafoya çatan-
da onlar Peteri evin yuxarı mərtəbə-
sinə çıxartdılar. Bütün dul qadınlar
ağlaşa-ağlaşa Peterin yanına yığıldı və
Tabitanın onlarla birlikdə olanda
tikdiyi köynəkləri, paltarları göstərir-
dilər. 40Peter isə onların hamısını
bayıra çıxartdı, sonra diz çöküb dua
etdi. Bundan sonra isə ölüyə tərəf
dönüb dedi: «Tabita, qalx!» Qadın
gözlərini açıb Peteri görən kimi dik
oturdu. 41Peter əlini uzadıb onu ayağa
qaldırdı və sonra müqəddəslərlə dul
qadınları çağırdı. Tabitanı sağ-sala-
mat onların qarşısına çıxartdı. 42Bu
xəbər bütün Yafoya yayıldı və çox
adam Rəbbə iman gətirdi. 43Peter isə
xeyli gün Yafoda, Şimon adlı bir dab-
bağın evində qaldı.

### *Mömin yüzbaşı*

10 1Qeysəriyyədə Korneli adlı bir
nəfər yaşayırdı. O, İtaliyalı adlı
alayın yüzbaşılarından biri idi. 2Həm
özü, həm də bütün külfəti mömin olub
Allahdan qorxardı. O, xalqa çox
nəzir-niyaz paylayar, daim Allaha dua
edərdi. 3Bir gün təxminən doqquzuncu
saat[a] radələrində görüntüdə aydın
gördü ki, Allahın bir mələyi yanına
gəlib onu çağırdı: «Ey Korneli!»
4Korneli qorxa-qorxa ona baxıb dedi:
«Nədir, ey ağam?» Mələk ona dedi:
«Duaların və nəzir-niyazların xatirə
təqdimi kimi Allahın hüzurunda qəbul
olundu. 5İndi Yafoya adamlar göndər,
Peter adlanan Şimonu çağırtdır. 6O,
dabbağ Şimonun dəniz kənarındakı
evində qonaqdır».[b] 7Onunla danışan
mələk gedəndən sonra Korneli xid-
mətçilərindən ikisini və mühafizəçilə-
rindən bir mömin əsgəri çağırtdırdı.
8Onlara hər şeyi danışdı və sonra
onları Yafoya göndərdi.

---

a **10:3** *Doqquzuncu saat* – hazırkı vaxtla günortadan sonra saat üç.

b **10:6** *Qonaqdır* – bəzi əlyazmalarda *qonaqdır. O sənə nə etməlisən deyəcək,* bəzilərində isə *qonaqdır. Onun sənə deyəcəyi sözlərlə həm sən, həm də külfətin xilas olacaq* (Həv. 11:14).

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 180



### *Peterin görüntüsü*

**9**Ertəsi gün təxminən altıncı saat[a]
radələrində, onlar yolda olub şəhərə
yaxınlaşanda Peter dua etmək üçün
dama çıxdı. **10**O acıb yemək istəyirdi.
Yemək hazırlanarkən Peterin fikrini
bir görüntü apardı. **11**O gördü ki, göy
yarıldı, böyük mələfəyə bənzər bir şey
dörd küncündən asılaraq yerə endi.
**12**Onun üstündə hər cür dördayaqlılar,
sürünənlər[b] və göydə uçan quşlar var
idi. **13**Ona bir səda gəldi: «Qalx, Peter,
kəs və ye!» **14**Peter Ona dedi: «Əsla, ya
Rəbb! Mən heç vaxt nə haram, nə də
murdar bir şey yeməmişəm». **15**Səda
ikinci dəfə yenə gəldi və Peterə dedi:
«Allahın halal dediyi şeylərə sən ha-
ram demə». **16**Bu, üç dəfə təkrarlanan-
dan sonra o şey dərhal göyə çəkildi.

**17**Peter bu görüntünün mənası barə-
də fikirləri ilə çaşbaş qalanda Korne-
linin göndərdiyi adamlar Şimonun
evini soruşurdular. Qapı ağzında
dayanıb **18**bərkdən soruşdular: «Peter
deyə çağırılan Şimon burada qalırmı?»
**19**Bu zaman görüntü barədə fikirləşən
Peterə Ruh belə dedi: «Bax səni üç kişi
axtarır. **20**Dur, aşağı en və heç tərəd-
düd etmədən onlarla get. Çünki onları
Mən göndərmişəm». **21**Peter aşağı enib
həmin adamlara dedi: «Axtardığınız
adam mənəm. Niyə gəlmisiniz?»
**22**Onlar dedilər: «Korneli adlı bir yüz-
başı var. O, saleh və Allahdan qorxan
kişidir; buna bütün Yəhudi milləti də
şahiddir. Müqəddəs bir mələk ona əmr
etdi ki, səni öz evinə çağırtdırsın və
deyəcəyin sözlərə qulaq assın». **23**Bun-
dan sonra Peter onları içəri dəvət edib
qonaq saxladı.

### *Kornelinin evində*

Ertəsi gün Peter qalxıb onlarla yola
çıxdı və Yafodan olan bəzi qardaşlar
da onlara qoşuldu. **24**Sonrakı gün
Qeysəriyyəyə çatdı. Korneli öz qo-
humlarını və yaxın dostlarını bir yerə
yığıb onları gözləyirdi. **25**Peter içəri
girəndə Korneli ayağına düşüb ona
səcdə etdi. **26**Peter isə onu ayağa
qaldıraraq dedi: «Qalx, mən də sənin
kimi insanam». **27**Peter Korneli ilə
danışa-danışa içəri daxil olanda gördü
ki, oraya xeyli adam yığılıb. **28**Onlara
belə dedi: «Bilirsiniz ki, Yəhudilərə
hər hansı bir yadelli ilə ünsiyyət yarat-
maq, onlara qonaq getmək qadağan-
dır. Amma insanları haram və murdar
saymamağı Allah mənə göstərdi.
**29**Buna görə məni çağıranda etiraz
etmədən gəldim. Deyə bilərsinizmi,
məni niyə çağırmısınız?» **30**Korneli
cavab verdi: «Üç gün əvvəl elə bu vaxt-
larda[c] doqquzuncu saatın[d] duasını
edirdim ki, birdən parlaq libaslı bir
kişi qarşımda dayandı **31**və dedi: "Ey
Korneli, sənin duaların eşidildi və
nəzir-niyazların Allah tərəfindən yada
salındı. **32**İndi Yafoya adamlar gön-
dər, Peter adlanan Şimonu çağırtdır.
O, dabbağ Şimonun dəniz kənarın-
dakı evində qonaqdır".[e] **33**Ona görə
sənin yanına adamlar göndərdim və
sən də xeyirxahlıq göstərərək gəldin.
İndi hamımız Allahın önündəyik və
Rəbbin sənə əmr etdiyi hər sözə qulaq
asmağa hazırıq».

a **10:9** *Altıncı saat* – hazırkı vaxtla günorta saat on iki.
b **10:12** *Sürünənlər* – bəzi əlyazmalarda *çöl heyvanları, sürünənlər.*
c **10:30** *Vaxtlarda* – bəzi əlyazmalarda *vaxtlarda oruc tutub.*
d **10:30** *Doqquzuncu saat* – hazırkı vaxtla günortadan sonra saat üç.
e **10:32** *Qonaqdır* – bəzi əlyazmalarda *qonaqdır. O gəlib sənə hər şeyi danışacaq.*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 181



34Peter sözə başlayıb dedi: «İndi
bildim ki, həqiqətən, Allah tərəfkeşlik
etmir. 35Milliyətindən asılı olmayaraq
kim ki Ondan qorxub əməlisaleh olar-
sa, Ona məqbuldur. 36O, İsrail övlad-
larına Öz kəlamını göndərdi və hamı-
nın Sahibi olan İsa Məsih vasitəsilə
barışdırma Müjdəsini yaydı. 37Bilirsi-
niz ki, Yəhyanın vəftiz üçün çağırı-
şından sonra Qalileyadan başlayaraq
bütün Yəhudeyada nələr baş verdi.
38Allah Nazaretli İsanı Müqəddəs
Ruhla və qüdrətlə məsh etdi. İsa xe-
yirxahlıq edərək hər yanı gəzib iblisin
təzyiqinə məruz qalanların hamısını
sağaltdı. Çünki Allah Ona yar idi.
39Yəhudilərin ölkəsində və Yerusə-
limdə İsanın nələr etdiyinin şahidi ol-
duq. Onu çarmıxa çəkib[a] öldürdülər.
40-41Amma Allah Onu üçüncü gün
diriltdi və bütün xalqa deyil, Öz əv-
vəlcədən seçdiyi şahidlərə – ölülər
arasından dirilməsindən sonra Onunla
birlikdə yeyib-içən bizlərə aydın
göstərdi. 42Bizə isə əmr verdi ki,
"Allahın təyin etdiyi ölülərlə dirilərin
Hakimi Budur" deyə bunu xalqa şəha-
dət etməklə vəz edək. 43Onun barə-
sində bütün peyğəmbərlər şəhadət edir
ki, Ona iman edən hər kəsin günahı
Onun adı ilə bağışlanır».

44Peter bu sözləri deyirdi ki, Mü-
qəddəs Ruh söhbətə qulaq asan hər
kəsin üzərinə endi. 45Peterlə birlikdə
gəlmiş sünnətli imanlılar Müqəddəs
Ruhun bəxşiş olaraq başqa millətlərin
də üstünə töküldüyünə mat qaldı;
46onların başqa dillərdə danışıb Allahı
mədh etdiyini eşitdilər. Onda Peter
belə dedi: 47«Bu adamlar bizim kimi
Müqəddəs Ruhu alıb. Bunların su ilə
vəftiz olmalarına kim mane ola bilər?»
48Beləliklə, onların İsa Məsihin adı ilə
vəftiz olmalarını buyurdu. Sonra on-
lar Peterdən xahiş etdilər ki, bir neçə
gün onların yanında qalsın.

### *Peterin izahı*

11 1Həvarilərlə bütün Yəhudeya-
dakı imanlı bacı-qardaşlar eşit-
dilər ki, başqa millətlər də Allahın
kəlamını qəbul ediblər. 2Peter Yerusə-
limə gələndə sünnət tərəfdarları onu
tənqid edərək 3dedilər: «Sən sünnətsiz-
lərin evinə gedib onlarla birgə yemək
yemisən».

4Peter sözə başlayıb onlara hər şeyi
bir-bir izah etdi: 5«Mən Yafo şəhərin-
də dua edirdim. Birdən fikrimi görün-
tü apardı. Gördüm ki, böyük mələfəyə
bənzər bir şey dörd küncündən asıla-
raq göydən enib mənim yanıma çatır.
6Bu şeyə gözlərimi dikib diqqətlə
baxdım. Gördüm ki, onun üstündə yer
üzərində yaşayan dördayaqlılar, çöl
heyvanları, sürünənlər və göydə uçan
quşlar var. 7Sonra eşitdim ki, bir səda
mənə deyir: "Qalx, Peter, kəs və ye!"
8Mən dedim: "Əsla, ya Rəbb! Heç
vaxt mənim ağzıma nə haram, nə də
murdar bir şey dəyməyib". 9Yenə
göydən səda gəldi: "Allahın halal
dediyi şeylərə sən haram demə". 10Bu,
üç dəfə təkrarlanandan sonra hər şey
yenə göyə çəkildi. 11Elə bu zaman
Qeysəriyyədən mənim yanıma göndə-
rilən üç kişi qaldığımız evin qapısında
dayandı. 12Ruh mənə dedi ki, tərəd-
düd etmədən onlarla gedim. İmanlı
qardaşlarımız olan bu altı nəfər də
mənə qoşulub həmin kişinin evinə
girdik. 13Bu adam bizə nəql etdi ki, öz
evində dayanan mələk görüb. Mələk
ona demişdi: "Yafoya adamlar gön-

a **10:39** *Çarmıxa çəkib* – hərfi tərcümədə *ağacdan asıb.* **10:34-35** *Qanun. 10:17*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 182



dər, Peter adlanan Şimonu çağırtdır.
14Onun sənə deyəcəyi sözlərlə həm sən,
həm də bütün külfətin xilas olacaq”.
15Mən sözə başlayanda Müqəddəs
Ruh başlanğıcda bizim üstümüzə
endiyi kimi onların da üstünə endi.
16Onda Rəbbin dediyi bu sözlər
yadıma düşdü: “Yəhya su ilə vəftiz
etdi, amma siz Müqəddəs Ruhla vəftiz
olacaqsınız”. 17Beləliklə, Rəbb İsa
Məsihə iman edən bizlərə verdiyi eyni
bəxşişi Allah onlara da veribsə, mən
kiməm ki, Allaha qarşı çıxam?» 18Bu
sözləri eşidib hamı sakitləşdi və Allahı
izzətləndirib dedi: «Deməli, Allah
başqa millətlərə də imkan yaratdı ki,
tövbə edib həyat tapsın».

### *Antakya cəmiyyətindəkilər*

19Stefanın öldürülməsi ilə başlanan
təqib nəticəsində pərən-pərən düşən
imanlılar Finikiya, Kipr və Antakyaya
qədər getdilər. Allahın kəlamını yalnız
Yəhudilərə dedilər. 20Amma onların
arasından bəzi Kiprli və Kirenalılar
Antakyaya gedib yunanca danışan-
larla da söhbətə başladılar. Onlara
Rəbb İsa ilə bağlı Müjdəni yayırdılar.
21Rəbbin əli onların üzərində idi və
bunun nəticəsində xeyli insan iman
gətirib Rəbbə tərəf döndü. 22Bunların
xəbəri Yerusəlimdəki cəmiyyətə çatdı
və Barnabanı Antakyaya göndərdilər.
23O oraya çatanda Allahın lütfünün
bəhrəsini görüb sevindi. O hamını
həvəsləndirirdi ki, can-dildən Rəbbə
bağlı qalsınlar. 24Çünki özü Müqəddəs
Ruhla və imanla dolu, xeyirxah bir
kişi idi. Bunun nəticəsində də böyük
bir kütlə Rəbbə iman gətirdi. 25Sonra
Barnaba Tarsusa gedib Şaulu axtardı.
26Onu tapan kimi Antakyaya gətirdi.
Bir il ərzində oradakı imanlılar cəmiy-
yətinə qoşulub bir yerdə yığılaraq
böyük bir kütləyə təlim öyrədirdi.
Şagirdlər ilk dəfə olaraq Antakyada
məsihçi adlandırıldı.

27Elə həmin günlərdə Yerusəlimdən
Antakyaya bəzi peyğəmbərlər gəldi.
28Bunlardan Aqab adlı biri qalxıb
Ruhun təsiri ilə bütün dünyada böyük
bir aclıq olacağını bildirdi. Bu aclıq
Klavdinin hakimiyyəti dövrünə təsa-
düf olundu. 29Şagirdlər qərara aldılar
ki, hər biri gücü çatan qədər Yəhude-
yada yaşayan imanlı bacı-qardaşla-
rına yardım göndərsin. 30Bu qərara
əməl edərək yardımları Barnaba və
Şaulun əli ilə cəmiyyət ağsaqqallarına
göndərdilər.

### *Peterin zindandan qaçması*

12 1O vaxtlar padşah Hirod cə-
miyyətin bəzi üzvlərinə zülm
etməyə əl atdı. 2Yəhyanın qardaşı
Yaqubu qılıncdan keçirib edam etdir-
di. 3Bundan Yəhudilərin razı qaldığını
görüb üstəlik Peteri də tutdurdu. Bunu
Mayasız Çörək bayramı vaxtında etdi.
4O, Peteri yaxalatdırıb zindana saldır-
dı; onu hər birində dörd nəfər olmaqla
dörd əsgəri dəstəyə nəzarət altında
saxlanmaq üçün təslim etdi. Niyyətin-
də tutmuşdu ki, Pasxa bayramından
sonra xalq qarşısında onun məhkəmə-
sini keçirsin. 5Peter buna görə zindan-
da saxlanılırdı. Lakin imanlılar cəmiy-
yəti ciddi-cəhdlə onun üçün Allaha
dua edirdi.

6Peter Hirodun ona məhkəmə
quracağı günün əvvəlki gecəsi iki əsgər
arasında bir cüt zəncirə bağlanmış
halda yatırdı. Qarovulçular da qapıda
dayanıb zindanın təhlükəsizliyini qo-

**11:16** *Həv. 1:5* **11:19** *Həv. 8:1-4* **11:28** *Həv. 21:10* **12:4** *Çıx. 12:1-27*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 183



ruyurdu. 7Qəflətən Rəbbin bir mələyi
göründü. Zindanın otağı işıqlandı.
Mələk Peterin böyrünə vurub onu
oyatdı və dedi: «Tez ol, qalx». O
andaca Peterin biləklərindəki zəncirlər
düşdü. 8Mələk ona dedi: «Qurşağını
bağla, çarığını geyin». Peter belə də
etdi. Mələk yenə dedi: «Üst paltarını
geyin, ardımca gəl». 9Peter onun
ardınca düşərək bayıra çıxdı. Amma
mələyin etdiyinin həqiqi olduğunu
başa düşmürdü, elə bilirdi ki, bir
görüntü görür. 10Birinci, ikinci qaro-
vulçunun yanından keçərək şəhərə
açılan dəmir darvazaya çatdılar.
Onların qarşısında darvaza öz-özünə
açıldı. Onlar çıxıb küçə uzunu getdi.
Birdən mələk Peterdən ayrıldı. 11O
andaca özünə gələn Peter dedi: «İndi
əminliklə başa düşdüm ki, Rəbb Öz
mələyini göndərib məni Hirodun əlin-
dən və Yəhudi xalqının gözlədiyi bü-
tün bəlalardan qurtardı».

12Peter bunları dərk edəndə Mark
adlanan Yəhyanın anası Məryəmin
evinə getdi. Orada xeyli adam yığılıb
dua edirdi. 13Peter həyət qapısını döy-
məyə başladı və Roda adlı bir qarabaş
eşidib qapıya getdi. 14Qız Peteri sə-
sindən tanıdı və sevincindən qapını
belə, açmadan yenə evə qaçdı. Ora-
dakılara xəbər verdi ki, Peter qapıda
dayanıb. 15Onlar isə belə dedilər:
«Dəli olmusan?» Amma qız dediyinin
üstündə durdu. Belə olanda dedilər:
«Yəqin onu qoruyan mələkdir». 16Pe-
ter isə dayanmadan qapını döyürdü.
Qapını açıb onu görəndə mat qaldılar.
17Peter əli ilə susmaq işarəsi verərək
Rəbbin onu necə zindandan çıxardı-
ğını nəql etdi. Sonra «bu xəbəri
Yaquba və o biri qardaşlara da çatdı-
rın» deyərək onlardan ayrılıb başqa
yerə getdi.

18Səhər açılanda əsgərləri böyük bir
vahimə bürüdü. Bir-birlərindən so-
ruşdular: «Bəs Peter necə oldu?»
19Hirod onu axtartdı. Tapa bilmə-
yəndə isə qarovulçuları sorğu-suala
çəkdirəndən sonra edam edilmələrinə
əmr verdi.

### *Padşah Hirodun ölümü*

Bundan sonra Hirod Yəhudeyadan
Qeysəriyyəyə yollandı və orada qaldı.
20Hirod Sur və Sidon əhalisinə qarşı
hiddətindən alışıb-yanırdı. Onlar bir-
likdə onun yanına gəlib sarayın məişət
işləri üzrə müdiri Blastı öz tərəflərinə
çəkərək sülh istədiklərini bildirdilər.
Çünki onların ölkəsi padşahın ölkəsin-
dən gələn ərzaqdan asılı idi. 21Təyin
olunan gündə şahlıq libasını geyən
Hirod hökm kürsüsünə oturaraq Sur
və Sidonlulara müraciət etdi. 22Ca-
maat qışqırmağa başladı: «Bu bir in-
sanın səsi deyil, bir allahın səsidir!»
23O anda Rəbbin bir mələyi Hirodu
vurdu. Çünki izzəti Allaha vermədi.
Onu daxildən qurdlar yedi və canı
çıxdı.

### *Barnaba ilə Şaula vəzifə tapşırılır*

24Allahın kəlamı isə yayılırdı və tə-
siri artırdı. 25Barnaba və Şaul Yerusə-
limdəki xidmətlərini yerinə yetirəndən
sonra Mark adlanan Yəhyanı özləri ilə
götürüb geri qayıtdılar.[a]

13 1Antakyadakı cəmiyyətdə pey-
ğəmbərlər və müəllimlər var idi:
Barnaba, Niger adlanan Şimeon,
Kirenalı Luki, hökmdar Hirodun süd

---

a **12:25** *Yerusəlimdəki öz xidmətlərini … geri qayıtdı* – bəzi əlyazmalarda *öz xidmətlərini … Yerusəlimdən qayıtdı.*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 184



qardaşı Menaxem və Şaul. 2Bu adam-
lar Rəbbə xidmət edib oruc tutarkən
Müqəddəs Ruh onlara dedi: «Barnaba
ilə Şaulu Mənim tapşırdığım iş üçün
ayırın». 3Beləliklə, oruc tutub dua
etdikdən sonra Barnaba ilə Şaulun
üzərinə əllərini qoydular və onları yola
saldılar.

### *Kiprdə*

4Müqəddəs Ruhun əmri ilə yola
çıxan Barnaba və Şaul Selevkiyaya
getdilər və oradan da gəmi ilə Kiprə
getdilər. 5Salamisə çatanda Yəhudilə-
rin sinaqoqlarında Allahın kəlamını
bəyan etməyə başladılar. Yəhya isə
onların köməkçisi idi. 6Adanı başdan-
başa gəzərək Pafosa çatdılar. Orada
Baryeşu adlı bir Yəhudi cadugər və
yalançı peyğəmbərə rast gəldilər.
7Baryeşu vali Sergi Paula yaxın adam
idi. Ağıllı kişi olan vali Barnaba ilə
Şaulu çağırtdırıb Allahın kəlamına
qulaq asmaq istədi. 8Lakin adı cadu-
gər mənasını verən Elima, yəni Barye-
şu buna qarşı çıxaraq valini imandan
azdırmağa çalışırdı. 9Amma Müqəd-
dəs Ruhla dolan Şaul, yəni Paul göz-
lərini Elimaya dikib 10dedi: «Ey iblis
oğlu, ürəyin hər cür hiylə və fırıldaqla
doludur. Ey salehliyə tamamilə düş-
mən kəsilən, Rəbbin haqq yolunu əyri
qələmə verməkdən əl çəkməyəcəksən-
mi? 11İndi isə bax, sənin üstünə Rəb-
bin əli gəlir. Kor olacaqsan, bir müd-
dət gün işığı görməyəcəksən». O anda
həmin adamın üzərinə bir duman, bir
qaranlıq çökdü. Ora-bura gəzərək
kimisə axtarırdı ki, onun əlindən tutub
yol göstərsin. 12Olanları görən vali
Rəbbin təliminə təəccübləndi və iman
etdi.

### *Pisidiyada olan Antakya*

13Paulla yanındakılar Pafosdan yel-
kən açıb Pamfiliya bölgəsindəki Perge
şəhərinə çatdı. Yəhya isə onlardan
ayrılıb Yerusəlimə qayıtdı. 14Onlar
yollarına davam edib Pergedən Pisi-
diyada olan Antakyaya çatdı. Şənbə
günü sinaqoqa girib oturdular. 15Qa-
nunun və Peyğəmbərlərin yazılarının
oxunmasından sonra sinaqoq rəisləri
onları çağırtdırıb dedilər: «Qardaşlar,
xalqa ürəkləndirici müraciətiniz varsa,
buyurub deyin».

16Paul ayağa qalxıb diqqəti cəlb
etmək üçün əlini qaldıraraq dedi: «Ey
İsraillilər və Allahdan qorxanlar,
qulaq asın. 17Bu xalqın, yəni İsraillilə-
rin səcdə etdiyi Allah bizim ata-
babalarımızı seçdi və Misirdə – qürbət
eldə yaşadıqları müddət ərzində onları
böyük bir millət etdi. Sonra əlini uza-
dıb onları Misirdən çıxartdı. 18Qırx ilə
yaxın səhrada qaldıqları müddət ərzin-
də onlara dözdü.[a] 19Kənan torpağında
yaşayan yeddi milləti qırandan sonra
bu millətlərin torpaqlarını irs olaraq
İsrail xalqına verdi. 20Bütün bunlar
təqribən dörd yüz əlli ili əhatə etdi.
Sonra Allah onlar üçün hakimlər
yetirdi. Bu, peyğəmbər Şamuelin döv-
rünə qədər davam etdi. 21Xalq padşah
istəyəndə isə Allah Binyamin qəbilə-
sindən olan Qiş oğlu Şaulu onlar üçün
padşah təyin etdi. O, qırx il padşahlıq
etdi. 22Onu aradan götürəndən sonra
Allah Davudu ucaldıb onların üzərin-
də padşah etdi və onun barəsində

---

a **13:18** *Onlara dözdü* – bəzi əlyazmalarda *onların qayğısına qaldı.*

**13:17-18** *Çıx. 1:7; 12:51; Say. 14:34; Qanun. 1:30-31* **13:19-20** *Qanun. 7:1; Yeşua. 14:1-19:51;* **13:19-20** *Hak. 2:16; 1Şam. 3:20* **13:21** *1Şam. 8:5; 10:21* **13:22** *1Şam. 13:14; 16:12; Zəb. 89:20*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 185



şəhadət etdi: "Öz ürəyimə yatan adam
olaraq Yessey oğlu Davudu tapdım və
o Mənim bütün istədiklərimi yerinə
yetirəcək". 23Allah Öz vədinə sadiq
qalıb bu adamın soyundan olan Xi-
laskar İsanı İsrailə göndərdi. 24İsanın
gəlişindən əvvəl Yəhya bütün İsrail
xalqına vəz etmişdi ki, tövbə edib
vəftiz olunsunlar. 25Yəhya işini qurta-
rarkən dedi: "Məni kim sayırsınız? O
Şəxs mən deyiləm. Məndən sonra O
gəlir. Mən Onun ayağındakı çarığını
açmağa belə, layiq deyiləm".

26Qardaşlar, ey İbrahimin nəslinin
övladları və aranızda olan Allahdan
qorxanlar, bu xilas sözü bizə[a] göndə-
rilib. 27Çünki Yerusəlim əhalisi və
onların rəhbərləri İsanı tanımadı.
Beləliklə, Onu mühakimə etməklə hər
Şənbə günü oxunan peyğəmbərlərin
sözünü yerinə yetirdilər. 28Onda ölümə
layiq heç bir təqsir tapmasalar da,
Pilatdan Onun edam olunmasını tələb
etdilər. 29Onun barəsində yazılanların
hamısını tam yerinə yetirəndən sonra
Onu çarmıxdan düşürüb qəbirə qoy-
dular. 30Lakin Allah Onu ölülər ara-
sından diriltdi. 31İsa xeyli günlər ərzin-
də daha əvvəl Qalileyadan Onunla
Yerusəlimə gələnlərə göründü. Bu
adamlar indi Onun barəsində xalq
üçün şahiddir.

32Biz indi sizə bu Müjdəni bəyan
edirik: ata-babalarımıza verilən vəd
həyata keçib, 33Allah İsanı diriltməklə
bu vədi onların övladları olan bizlər
üçün yerinə yetirib. İkinci məzmurda
belə yazılıb:

"Sən Mənim Oğlumsan,
Mən bu gün Sənə Ata oldum".

34Allah Onu ölülər arasından dirildə-
rək heç vaxt çürüməyə qoymayacaq.
Ona görə demişdi: "Davuda vəd
etdiyim sadiq məhəbbəti sizə göstərə-
cəyəm". 35Buna görə də başqa yerdə
belə deyir: "Mömin insanını çürüməyə
qoymazsan". 36Davud öz müasirlərinə
Allahın iradəsinə müvafiq xidmət
edəndən sonra vəfat etdi. O da ataları
ilə uyudu və cəsədi çürüyüb-getdi.
37Amma Allahın diriltdiyi İnsanın cis-
mi çürümədi.

38Bununla da, ey qardaşlar, bilin
ki, bu İnsan vasitəsilə günahların
bağışlanması sizə elan edilir. Belə ki
Musanın Qanununa görə saleh sayıl-
mamanızın səbəblərinin heç birinə
baxmayaraq, 39iman edən hər kəs bu
İnsanda saleh sayılacaq. 40Ehtiyatlı
olun ki, Peyğəmbərlərin dedikləri baş
verməsin:

41"Baxın, siz ey xor baxanlar,
Mat qalın və yox olun.
Sizin vaxtınızda elə işlər
görəcəyəm ki,
Sizə danışsaydılar,
inanmazdınız"».

42Paulla Barnaba sinaqoqdan çı-
xarkən camaat[b] onlardan xahiş etdi ki,
gələn Şənbə günü yenə də bu mövzu-
dan danışsınlar. 43Sinaqoqda olan
camaat çıxıb gedəndən sonra xeyli
Yəhudi və Yəhudi dinini qəbul edən
möminlər Paul və Barnabanın ardınca
getdilər. Onlar da bu adamlarla söh-
bətlər edir və Allahın lütfündə dönməz

a **13:26** *Bizə* – bəzi əlyazmalarda *sizə.*
b **13:42** *Camaat* – bəzi əlyazmalarda *Başqa millətlərdən olanlar.*
**13:24** *Mark 1:4; Luka 3:3* **13:25** *Mat. 3:11; Mark 1:7; Luka 3:16; Yəh. 1:19-20,27*
**13:28** *Mat. 27:22-23; Mark 15:13-14; Luka 23:21-24; Yəh. 19:15*
**13:29** *Mat. 27:57-61; Mark 15:42-47; Luka 23:50-56; Yəh. 19:38-42* **13:31** *Həv. 1:3*
**13:32-33** *Zəb. 2:7* **13:34** *Yeş. 55:3* **13:35** *Zəb. 16:10* **13:40-41** *Hab. 1:5*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 186



olsunlar deyə onlara öyüd-nəsihət
verirdilər.
44 Növbəti Şənbə Rəbbin kəlamına
qulaq asmaq üçün demək olar ki bütün
şəhər əhalisi toplaşmışdı. 45 İzdihamı
görən Yəhudiləri qısqanclıq bürüdü və
Paulun nitqinin əleyhinə qalxıb ona
böhtan atdılar. 46 Paulla Barnaba isə
cəsarətlə dedilər: «Allahın kəlamı
əvvəlcə sizə bəyan olunmalı idi. Sizin
ondan imtina etdiyiniz və özünüzü
əbədi həyata layiq görmədiyiniz üçün
biz indi başqa millətlərə üz tuturuq.
47 Çünki Rəbbin bizə əmri belə idi:

“Səni millətlərə nur etmişəm ki,
Xilası dünyanın ən uzaq yerlərinə
yayasan”».

48 Başqa millətlərdən olanlar bunu
eşidərkən sevinirdilər və Rəbbin kə-
lamını izzətləndirirdilər. Əbədi həyat
üçün təyin olunanların hamısı iman
gətirdi. 49 Beləliklə, Rəbbin kəlamı
bütün bölgəyə yayıldı. 50 Amma Yəhu-
dilər hörmətli, mömin qadınları və
şəhərin nüfuzlu adamlarını təşvişə
saldılar. Onlar da Paulla Barnabanı
təqib edib o bölgədən qovdular.
51 Buna görə də Paulla Barnaba ayaq-
larının tozunu onların üstünə çırpıb
Konyaya getdilər. 52 Şagirdlər isə
sevinc və Müqəddəs Ruhla doldular.

### *Konyada*

14 1 Konyada Paulla Barnaba Yə-
hudilərin sinaqoquna birlikdə
daxil olub elə danışdılar ki, həm
Yəhudilərdən, həm də Yunanlardan
ibarət böyük kütləni imana gətirdilər.
2 Amma inanmayan Yəhudilər başqa
millətlərdən olanları qızışdıraraq on-
ları imanlıların əleyhinə qaldırdılar.
3 Xeyli vaxt orada qalan Paulla Bar-
naba cəsarətlə Rəbb haqqında danı-
şırdı. Rəbb isə onlara əlamət və xariqə
göstərmək gücünü verməklə Öz lütfü
barədə kəlamı təsdiqlədi. 4 Amma
şəhər əhalisi iki hissəyə bölündü.
Bəziləri Yəhudilərin, bəziləri isə həva-
rilərin tərəfini saxladı. 5 Yəhudilərlə
başqa millətlərdən olanlar və onların
rəhbərləri həvariləri təhqir edərək
daşqalaq etmək üçün bir sui-qəsd
hazırladı. 6 Bundan xəbər tutan bu hə-
varilər Likaoniyanın Listra ilə Derbe
şəhərlərinə və oranın ətraf yerlərinə
qaçdılar. 7 Orada da Müjdəni yaydılar.

### *Listra və Derbedə*

8 Listrada ayaqlarından şikəst olan
bir kişi var idi. Bu adam anadangəlmə
əlil idi, heç vaxt yeriməmişdi. 9 O,
Paulun dediklərinə qulaq asırdı. Ona
göz qoyan Paul gördü ki, sağalacağına
imanı var. 10 Ona görə bərkdən dedi:
«Qalx, ayaq üstə dur!» Bu adam
yerindən atılıb yeriməyə başladı.
11 Camaat Paulun etdiyini görəndə
haray salıb Likaoniya dilində dedi:
«Tanrılar insan şəklində yanımıza
gəlib!» 12 Barnabaya Zevs, Paula isə
aparıcı natiq olduğuna görə Hermes
dedilər. 13 Şəhərin qarşısında yerləşən
Zevs məbədinin kahini şəhər darva-
zalarına buğalar və çələnglər gətirdi.
O, camaatla birgə qurban kəsmək
istədi. 14 Amma həvarilər – Barnaba ilə
Paul bunu eşidən kimi paltarlarını
cırdılar və izdihamın içinə girib haray
çəkdilər: 15 «Ay ağalar, niyə belə edir-
siniz? Biz də sizin kimi insanıq, eyni
varlığıq. Sizə Müjdə gətirmişik. Əl
çəkin bu boş şeylərdən. Yeri, göyü,
dənizi və bunların içindəki hər şeyi
yaradan, var olan Allaha tərəf dönün.

**13:47** *Yeş. 42:6; 49:6-7* **13:51** *Mat. 10:14; Mark 6:11; Luka 9:5; 10:10-11*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 187



[16]O, əvvəlki nəsillərin dövründə
yaşayan bütün millətlərə öz yolları ilə
getməyə izin verdi. [17]Lakin yenə də
Özünü şahidsiz qoymadı. Sizə yaxşılıq
edərək göydən yağışlar yağdırır,
cürbəcür məhsullar yetişdirən fəsillər
bəxş edir, sizi yeməklə doydurur və
ürəyinizi sevincə qərq edir». [18]Bu söz-
lərlə camaatın onlara qurban kəsmə-
sinin qarşısını bir çətinliklə aldılar.

[19]Antakya[a] və Konyadan bəzi Yə-
hudilər gəlib xalqı öz tərəfinə çəkərək
Paulu daşqalaq etdilər. Elə bildilər ki,
Paul ölüb, onu şəhərdən kənara sürü-
dülər. [20]Şagirdlər ətrafına yığılanda isə
Paul ayağa qalxıb şəhərə qayıtdı.
Ertəsi gün isə Barnaba ilə birlikdə
Derbeyə getdi. [21]O şəhərdə də Müjdə
yayıb xeyli şagird hazırladılar.

### *Suriyada olan Antakyaya qayıtma*

Paulla Barnaba daha sonra Listra-
ya, Konyaya və Pisidiyada olan
Antakyaya qayıtdı. [22]Şagirdləri ruhən
möhkəmləndirdilər və imanda dönməz
olsunlar deyə onları həvəsləndirərək
dedilər: «Allahın Padşahlığına çox
əziyyətlərdən keçərək girməliyik».
[23]İmanlılar üçün hər cəmiyyətdə
ağsaqqallar seçərək dua və orucla
onları inandıqları Rəbbə əmanət
etdilər.

[24]Pisidiya bölgəsindən keçərək
Pamfiliyaya gəldilər. [25]Pergedə kəlamı
yayandan sonra Antalyaya getdilər.
[26]Oradan gəmi ilə Suriyadakı Antak-
yaya qayıtdılar. Onların indi yerinə
yetirdikləri xidmət üçün burada
Allahın lütfünə əmanət edilmişdilər.
[27]Oraya çatanda cəmiyyəti bir yerə
yığıb Allahın onlar vasitəsilə nə etdi-
yini, başqa millətlərə iman qapısını ne-
cə açdığını söylədilər [28]və şagirdlərin
yanında uzun müddət qaldılar.

### *Yerusəlimdəki məşvərət*

15 [1]Yəhudeyadan gələn bəzi
adamlar Antakyadakı imanlı
bacı-qardaşlara belə təlim öyrədirdi:
«Əgər siz Musanın qoyduğu adətə
görə sünnət olmasanız, xilas ola bil-
məzsiniz». [2]Paul və Barnaba bu adam-
larla çox çəkişib mübahisə etdi. Nə-
hayət qərara alındı ki, Paulla Barnaba
digər qardaşlardan bir neçəsini
götürərək Yerusəlimə gedib bu sualın
müzakirəsi üçün həvarilər və ağsaqqal-
larla görüşsünlər. [3]Beləliklə, cəmiyyət
tərəfindən göndərilənlər Finikiya və
Samariya bölgələrindən keçdilər. Baş-
qa millətlərin Allaha tərəf necə dön-
mələrini xəbər verə-verə oradakı bütün
imanlı bacı-qardaşları çox sevindir-
dilər. [4]Yerusəlimə çatanda oradakı
imanlılar cəmiyyəti və həvarilərlə
ağsaqqallar onları yaxşı qarşıladılar.
Allahın onlar vasitəsilə etdiyi hər şeyi
danışdılar. [5]Amma farisey təriqətin-
dən olmuş bəzi imanlılar qalxıb belə
dedilər: «Başqa millətlərdən olanları
sünnət etmək və onlara Musanın
Qanununa riayət etmələrini əmr etmək
lazımdır».

[6]Həvarilərlə ağsaqqallar bu möv-
zunun müzakirəsi üçün toplaşdılar.
[7]Uzun-uzadı mübahisələrdən sonra
Peter ayağa qalxıb dedi: «Qardaşlar,
bildiyiniz kimi Allah aranızdan çox-
dan bəri məni seçib ki, başqa millətlər-
dən olanlar Müjdəni mənim dilimdən
eşidib iman etsinlər. [8]İnsanın ürəyin-
dən xəbərdar olan Allah bizə verdiyi

---

a **14:19** *Antakya* – yəni Pisidiyada olan Antakya.
**15:1** *Lev. 12:3* **15:7** *Həv. 10:1-43* **15:8** *Həv. 2:4; 10:44*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 188



kimi Müqəddəs Ruhu onlara da ver-
məklə təsdiq etdi ki, onları qəbul edir.
**9**Onlarla bizim aramızda heç bir ayrı-
seçkilik yaratmadı, imanları ilə onla-
rın da ürəklərini təmizlədi. **10**Elə isə nə
bizim, nə də ata-babalarımızın gəzdirə
bilmədiyi boyunduruğu niyə bu şa-
girdlərin boynuna yükləyərək Allahı
sınağa çəkirsiniz? **11**Əksinə, inanırıq
ki, biz də Rəbb İsanın lütfü ilə xilas
oluruq, onlar da».

**12**Onda bütün toplantı sakitləşdi və
Barnaba ilə Paula qulaq asmağa baş-
ladılar. Barnaba ilə Paul Allahın onlar
vasitəsilə başqa millətlər arasında gös-
tərdiyi əlamət və xariqələrin hamısını
danışdı. **13**Onlar sözlərini yekunlaşdı-
randan sonra Yaqub söz alıb dedi:
«Qardaşlar, mənə qulaq asın! **14**Allah
başqa millətlərdən Öz adı üçün bir
xalq yaratmaq məqsədi ilə onlara ilk
dəfə necə nəzər salması barədə Şimon
izahat verdi. **15**Peyğəmbərlərin sözləri
bunu təsdiqləyir. Orada yazıldığı kimi:

**16**“Bundan sonra qayıdacağam,
Davudun yıxılan çadırını bərpa
edəcəyəm.
Onun dağılan yerlərini yenidən
tikəcəyəm,
Onu əvvəlki halına salacağam,
**17-18**Ona görə ki qalan insanlar –
Mənim adımla çağırılan bütün
millətlər Rəbbi axtarsınlar.
Bunları qədimdən bəri məlum
edən Rəbb belə deyir”.[a]

**19**Beləliklə, bu qərara gəlmişəm ki,
başqa millətlərdən Allaha tərəf dö-
nənlərə maneçilik törətməməliyik.
**20**Lakin onlara yazmalıyıq ki, bütlərə
təqdim olunub murdarlanan qurban-
ların ətini, boğularaq öldürülən hey-
vanların ətini və qan yeməsinlər;
əxlaqsızlıqdan da özlərini uzaq saxla-
sınlar. **21**Çünki qədim nəsillərin döv-
ründən bəri hər şəhərdə Musanın
sözlərini vəz edənlər var və bu sözlər
hər Şənbə günü sinaqoqlarda oxun-
maqdadır».

### *Yəhudi olmayanlara məktub*

**22**Buna görə bütün imanlılar cəmiy-
yəti ilə həvarilər və ağsaqqallar razı-
lığa gəldilər ki, öz aralarından adam-
lar seçib Paul və Barnaba ilə birlikdə
Antakyaya göndərsinlər. İmanlı bacı-
qardaşlar arasında rəhbərlik edən
Barsabba adlanan Yəhuda ilə Silanı
seçdilər. **23**Onların əlinə bu məktubu
verib göndərdilər:

«İmanlı qardaşlarınız olan biz
həvarilərlə ağsaqqallardan Antak-
ya, Suriya və Kilikiyada yaşayan,
başqa millətlərdən olan bacı-qar-
daşlara salam!

**24**Eşitdik ki, bizlərdən bəzi
adamlar yanınıza gəlib sözləri ilə
sizi lərzəyə salaraq düşüncələrinizi
qarışdırıblar.[b] Lakin bunu onlara
biz tapşırmamışdıq. **25**Ona görə də
aramızdan bəzi adamları seçib
sevimli dostlarımız Barnaba və
Paulla bərabər sizin yanınıza gön-
dərməyi yekdilliklə qərara aldıq.
**26**Hər ikisi Rəbbimiz İsa Məsihin
adı uğrunda canını təhlükəyə atıb.
**27**Qərarımıza müvafiq sizin yanı-
nıza Yəhuda ilə Silanı göndəririk ki,
eyni şeyləri sizə şifahi olaraq şərh
etsinlər. **28**Müqəddəs Ruh və biz
vacib olan bu qaydalardan başqa

---

a **15:17-18** *Bunları qədimdən bəri bəyan edən Rəbb belə deyir”* – bəzi əlyazmalarda *Bunların hamısını edən Rəbb belə deyir”. Allahın bütün işləri qədimdən bəri Özünə məlumdur.*

b **15:24** *Qarışdırıblar* – bəzi əlyazmalarda *qarışdırıb və «sünnət olub Qanuna əməl etməlisiniz» deyiblər.*

**15:15-18** *Amos 9:11-12* **15:20** *Çıx. 34:15-17; Lev. 17:10-16; 18:6-23*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 189



sizin üstünüzə heç nəyi yükləmə-
məyi lazım bildik: **29**Bütlərə təqdim
olunan qurbanların ətini, boğula-
raq öldürülən heyvanların ətini və
qan yeməyin; əxlaqsızlıqdan da
özünüzü uzaq saxlayın. Bunlardan
qaçsanız, düz edərsiniz. Salamat
qalın».

**30**Beləliklə, adamlar yola düşüb
Antakyaya getdi və camaatı bir yerə
yığıb məktubu onlara verdi. **31**İman-
lılar ucadan oxunan məktubun ürək-
ləndirici sözlərindən sevindilər. **32**İkisi
də peyğəmbər olan Yəhuda və Sila bir
çox danışıqlar apararaq imanlı bacı-
qardaşları ürəkləndirib ruhən möh-
kəmləndirdi. **33**Bir müddət orada
qalandan sonra onları göndərənlərin
yanına qayıtmaq üçün bacı-qardaşlar
tərəfindən əmin-arxayın yola salındı-
lar. **34**[a]

**35**Paulla Barnaba Antakyada qalıb
xeyli başqa adamla birlikdə Rəbbin
kəlamını öyrədərək Müjdəni yaydılar.

### *Paulla Barnaba arasında fikir ayrılığı*

**36**Bundan bir qədər sonra Paul
Barnabaya dedi: «Rəbbin kəlamını
elan etdiyimiz bütün şəhərlərə qayıdıb
imanlı bacı-qardaşlara baş çəkək, hal-
əhval tutaq». **37**Barnaba istədi ki,
Mark adlanan Yəhyanı da aparsınlar.
**38**Amma Paul Pamfiliyada onları atıb
gedən, onlarla birlikdə işini başa çat-
dırmayan adamı özləri ilə götürməyi
məsləhət bilmədi. **39**Onların arasında
elə kəskin fikir ayrılığı oldu ki, bir-
birlərindən ayrıldılar. Barnaba Markı
götürüb Kiprə doğru yelkən açdı.
**40**Paul isə Silanı seçdi və imanlı bacı-
qardaşlar tərəfindən Rəbbin lütfünə
əmanət ediləndən sonra yola çıxdı.
**41**Onlar Suriya və Kilikiyanı gəzib-
dolaşdılar və cəmiyyətləri möhkəmlən-
dirdilər.

### *Timotey Paul və Sila ilə*

**16** **1**Paul Derbe və Listraya gəldi.
Listrada Timotey adlı bir İsa
şagirdi var idi. Onun anası imanlı bir
Yəhudi, atası isə Yunan idi. **2**Listra və
Konyadakı imanlı bacı-qardaşlar
onun barəsində xoş sözlər deyirdi.
**3**Timoteyi özü ilə aparmaq istəyən
Paul bu şəhərlərdəki Yəhudilərə görə
onu sünnət etdi. Çünki hamı onun
atasının Yunan olduğunu bilirdi. **4**On-
lar şəhərbəşəhər gəzib-dolaşır, Yeru-
səlimdəki həvarilərlə ağsaqqalların
qərara aldığı qaydaları imanlılara
deyir və göstərirdi ki, bunlara riayət
etsinlər. **5**Beləliklə, cəmiyyətlər iman-
da güclənir və sayı günbəgün artırdı.

### *Paulun Makedoniyalı adam barədə görüntüsü*

**6**Müqəddəs Ruh onlara imkan
vermədi ki, Asiya vilayətində kəlamı
yaysınlar. Ona görə də onlar Frigiya
və Qalatiya ərazisini keçib getdilər.
**7**Misiya sərhədinə gələrkən Bitinyaya
getməyə çalışdılar. Amma İsanın Ru-
hu onlara izin vermədi. **8**Ona görə
Misiyadan keçib Troasa getdilər. **9**O
gecə Paul bir görüntü gördü. Make-
doniyalı bir nəfər onun qarşısında
durub yalvarırdı: «Makedoniyaya gəl
və bizə kömək et!» **10**Paul bu görün-
tünü görəndən sonra Makedoniyaya
getmək üçün dərhal bir yol axtardıq.
Bundan nəticə çıxartdıq ki, Allah bizi
orada Müjdə yaymaq üçün çağırır.

---

a **15:33-34** *Salındılar* – bəzi əlyazmalarda *salındılar.* [34] *Amma Sila orada qalmaq istədi.*
**15:38** *Həv. 13:13*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 190



### *Filipidə*

**11**Troasdan yelkən açıb birbaşa Samotraki adasına və ertəsi gün isə Neapolisə gəldik. **12**Oradan Filipiyə keçdik. Bura Makedoniya bölgəsində əhəmiyyətli bir şəhərdir, əhalisi əsasən Romalılardır. Bu şəhərdə bir neçə gün qaldıq. **13**Şənbə günü şəhər darvazasından çıxıb çay kənarına getdik. Elə bildik ki, Yəhudilər adətən oraya dua etmək üçün yığılır. Oturduq, oraya yığılan qadınlarla söhbət etməyə başladıq. **14**Bizə qulaq asanlar arasında Tiatira şəhərindən tünd qırmızı parça satan, Allaha mömin olan Lidiya adlı bir qadın var idi. Paulun sözlərinə qulaq asmaq üçün Rəbb ona açıq ürək vermişdi. **15**Lidiya ev əhli ilə bərabər vəftiz olunduqdan sonra bizi evinə dəvət edib dedi: «Əgər siz məni Rəbbə sadiq bir insan kimi qəbul edirsinizsə, gəlin, mənim evimdə qalın». O bizi buna razı etdi.

**16**Bir gün biz dua yerinə gedərkən falçılıq ruhuna tutulan bir qarabaş qarşımıza çıxdı. Bu qız baxıcılıq edərək öz ağalarına nə qədər qazanc gətirmişdi. **17**O, Paulun və bizim ardımızca düşərək qışqıra-qışqıra deyirdi: «Bu adamlar Allah-Taalanın qullarıdır. Sizə[a] xilas yolunu bildirirlər». **18**Bunu günbəgün təkrar etdi. Bu, Paulu çox bezdirdi. Nəhayət, o çevrilib ruha dedi: «İsa Məsihin adı ilə sənə əmr edirəm, bu qızdan çıx!» Ruh dərhal qızdan çıxdı.

**19**Qızın ağaları görəndə ki bu qazancdan ümidləri kəsildi, Paulla Silanı tutub bazar meydanına – rəhbərlərin qarşısına gətirdilər. **20**Onları hakimlərin qarşısına çıxararaq dedilər: «Bu adamlar Yəhudidir. Şəhərimizə qarışıqlıq salıblar. **21**Biz Romalılara qəbulu və icrası qadağan olunan adətləri yayırlar». **22**Xalq da Paulla Silanın əleyhinə çıxdı. Hakimlər əmr verdilər ki, onların əyinlərindəki paltarları soyundurub dəyənəklə döysünlər. **23**Onlara çox zərbə vurdular və sonra zindana atdılar. Zindanın baş mühafizəçisinə əmr etdilər ki, onları möhkəm nəzarət altında saxlasınlar. **24**Bu əmri alan baş mühafizəçi onları zindanın xüsusi otağına aparıb ayaqlarını kündəyə saldı.

**25**Gecə yarısına yaxın Paulla Sila dua edir və Allaha ilahilər oxuyurdu. Digər məhbuslar da onlara qulaq asırdılar. **26**Birdən elə güclü zəlzələ oldu ki, zindanın təməli belə, yerindən oynadı. Bir andaca bütün qapılar açıldı, hamının zəncirləri töküldü. **27**Baş mühafizəçi oyanıb zindanın qapılarını açıq görəndə qılıncını çəkib canına qəsd etmək istədi. Elə bildi ki, məhbuslar qaçıb. **28**Amma Paul bərkdən qışqırıb dedi: «Canına qıyma, hamımız buradayıq!» **29**Baş mühafizəçi işıq gətirdib içəri qaçdı. Titrəyə-titrəyə Paul və Silanın qarşısında yerə düşdü. **30**Onları bayıra çıxararaq soruşdu: «Ağalar, xilas olmaq üçün nə etməliyəm?» **31**Onlar dedilər: «Rəbb İsaya iman et, sən də, ev əhlin də xilas olarsınız». **32**Sonra həm ona, həm də onun ev əhlinə Rəbbin kəlamını bildirdilər. **33**Gecənin bu vədəsində baş mühafizəçi onları götürüb yaralarını yudu. Sonra həm özü, həm də ev əhli dərhal vəftiz oldu. **34**Paulla Silanı evinə aparıb onlar üçün süfrə açdı. Allaha iman etdiklərinə görə o və bütün ev əhli şad oldular.

---

a **16:17** *Sizə* – bəzi əlyazmalarda *Bizə*.

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 191



**35**Səhər açılanda hakimlər yasa-
vullar göndərib dedilər: «Bu adamları
azad et». **36**Baş mühafizəçi bu sözləri
Paula çatdırdı: «Hakimlər xəbər gön-
dərdi ki, siz azad ediləsiniz. İndi çıxın,
arxayın gedin». **37**Amma Paul yasa-
vullara belə dedi: «Roma vətəndaşı
ola-ola bizi məhkəməsiz hamının qar-
şısında döyüb zindana atdılar. İndi
bizi gizli-gizli qovmaq istəyirlərmi?
Belə şey ola bilməz! Özləri gəlsin, bizi
buradan çıxarsın!» **38**Yasavullar bu
sözləri hakimlərə çatdırdılar. Hakim-
lər Paulla Silanın Roma vətəndaşı
olduğunu eşidəndə qorxdular **39**və
gəlib onlardan üzr istədilər. Sonra
onları bayıra çıxarıb xahiş etdilər ki,
şəhərdən çıxıb getsinlər. **40**Paulla Sila
zindandan çıxandan sonra Lidiyanın
evinə getdilər. İmanlı bacı-qardaşlarla
görüşüb onları ruhlandırandan sonra
yola düşüb getdilər.

### *Salonikdə*

**17** **1**Onlar Amfipolis və Apolloni-
yadan keçərək Salonikə gəldi-
lər. Burada bir Yəhudi sinaqoqu var
idi. **2**Paul adətinə görə Yəhudilərin ya-
nına gedib üç Şənbə dalbadal onlarla
Müqəddəs Yazılar üstündə mübahisə
etdi, **3**şərh və sübut göstərdi ki, Mə-
sihin əzab çəkərək ölüb ölülər arasın-
dan dirilməsi lazım idi və dedi: «Sizə
elan etməkdə olduğum bu İsa Məsih-
dir!» **4**Yəhudilərdən bəziləri, mömin
Yunanların böyük bir hissəsi, bir çox
nüfuzlu qadınlar buna əmin oldu və
Paulla Silaya qoşuldu. **5**Yəhudilərin
buna paxıllığı tutdu. Meydana[a] yığı-
lan camaatın içərisində olan bəzi şər
adamlardan bir izdiham toplayıb şə-
hərdə qarışıqlıq saldılar. Paulla Silanı
xalqın önünə çıxarmaq məqsədi ilə
Yasonun evinə hücum etdilər. **6**Onları
tapmayanda Yasonla bəzi imanlı qar-
daşları sürüyə-sürüyə şəhər başçıları-
nın qarşısına gətirib hay-küy saldılar:
«Dünyaya çaxnaşma salan bu adam-
lar gəlib buraya da çıxdı. **7**Yason
onları öz evinə qəbul edib. Bunların
hamısı qeysərin fərmanlarının əksinə
gedib deyir ki, İsa adlı başqa bir
padşah var». **8**Bu sözləri eşidən izdi-
ham və şəhər başçıları lərzəyə düşdü-
lər. **9**Nəhayət, başçılar təminat alaraq
Yason və digərlərini azad etdilər.

### *Veriyada*

**10**İmanlı bacı-qardaşlar isə gecə
olan kimi Paulla Silanı dərhal Veriya
şəhərinə göndərdilər. Onlar oraya ça-
tarkən Yəhudilərin sinaqoquna get-
dilər. **11**Veriyadakı Yəhudilərsə Salo-
nikdə olanlardan daha açıq fikirli idi.
Kəlamı böyük həvəslə qarşılayaraq
hər gün Müqəddəs Yazıları araşdırır,
«Bu düzgün təlimdirmi?» deyə yoxla-
yırdılar. **12**Beləliklə, onların arasından
xeyli adam, həmçinin çoxlu hörmətli
Yunan qadınları və kişiləri iman etdi-
lər. **13**Lakin Salonikdəki Yəhudilər
Paulun Veriyada da Allahın kəlamını
elan etdiyini biləndə oraya getdilər və
xalqı qızışdırıb lərzəyə saldılar.
**14**Bundan sonra imanlı bacı-qardaşlar
Paulu dərhal dəniz sahilinə gedən
yolla göndərdilər. Sila ilə Timotey isə
Veriyada qaldı. **15**Paulu yola salanlar
onu Afinaya qədər ötürdülər. Sonra
Paul onlara əmr verdi ki, geri qayıdıb
Sila ilə Timoteyi təcili surətdə onun
yanına göndərsinlər.

---

a **17:5** *Yəhudilərin buna paxıllığı tutdu. Meydana* – bəzi əlyazmalarda *İman etməyən Yəhudilər meydana.*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 192



### *Afinada*

**16**Onları Afinada gözləyən Paul gördü ki, şəhər bütlərlə doludur. Bundan ötrü onun ürəyi çox narahat oldu. **17**Buna görə sinaqoqda Yəhudilərlə və mömin Yunanlarla, hər gün bazar meydanında rastlaşdığı insanlarla mübahisə edirdi. **18**Epikürçü və Stoist fəlsəfi cərəyanından olanların bəziləri onunla mübahisəyə girişdi. Kimisi deyir: «Bu boşboğaz nə demək istəyir?» Kimisi də deyir: «Deyəsən bu yad allahların təbliğatçısıdır». Çünki Paul İsa və dirilmə ilə bağlı Müjdəni yaymaqda idi. **19**Onlar Paulu götürüb Areopaq[a] məşvərətinə gətirdilər. Ondan soruşdular: «Sənin yaydığın bu yeni təlimin nə olduğunu bilmək olarmı? **20**Çünki qulağımız öyrəşmədiyi şeyləri bizə eşitdirirsən. İndi bunların mənasını bilmək istəyirik». **21**Bütün Afinalılar və şəhərdəki yadellilər vaxtlarını yalnız yeni fikirləri söyləyərək və qulaq asaraq keçirirdi.

**22**Paul Areopaqın qarşısına çıxıb belə söylədi: «Ey Afinalılar, sizin hər cəhətdən çox pərəstişkar olduğunuzu görürəm. **23**Belə ki mən ətrafda gəzəndə səcdəgahlarınıza diqqətlə nəzər salarkən bir qurbangaha da rast gəldim ki, onun üstündə yazılmışdı: "Naməlum Allaha məxsus". Tanımadan ibadət etdiyiniz bu Allahı sizə tanıtmaq istəyirəm. **24**Dünyanı və onda mövcud olan hər şeyi yaradan, yerin-göyün Sahibi olan Allah əllə tikilən məbədlərdə yaşamaz. **25**İnsan əli ilə edilən xidmətə Onun ehtiyacı yoxdur, çünki hər kəsə həyat, nəfəs və hər şeyi verən Odur! **26**Allah bütün bəşəriyyətin millətlərini bir insandan[b] yaratdı ki, bütün yer üzərində yaşasınlar. Yaşamaq üçün onlara zaman və məkan təyin etdi ki, **27**Onu axtarsınlar, yəni kor əllərini sürtə-sürtə yol axtardığı kimi axtarıb Onu tapa bilsinlər. Əslində Allah heç birimizdən uzaq deyil. **28**"Axı biz Onda yaşayırıq, hərəkət edirik, mövcuduq". Bəzi şairlərinizin dediyi kimi: "Biz də Onun nəslindənik". **29**Demək biz Allahın nəslindən olduğumuza görə belə düşünmək olmaz ki, İlahi Varlıq insan layihəsi və istedadı ilə yaranan qızıl, gümüş yaxud daşdan düzəldilən bir şeyə bənzəyir. **30**Allah cəhalət zamanlarında buna göz yumdu, amma indi hər yerdə hamının tövbə etməsini insanlara əmr edir. **31**Çünki Allah Öz seçdiyi Şəxs vasitəsilə dünyanı ədalətlə mühakimə edəcəyi günü təyin edib. Onu ölülər arasından diriltməklə hamının qarşısında bunu təsdiq edib».

**32**Ölülərin dirilməsi ilə bağlı sözləri eşidən kimi bəziləri onu ələ saldı, kimisi də belə dedi: «Bu barədə səndən bir daha eşitmək istəyirik». **33**Beləliklə, Paul onların arasından çıxıb getdi. **34**Bir neçə insan isə ona qoşulub iman gətirdi. Bunların arasında Areopaq üzvü Dionis, Damaris adlı bir qadın və başqaları da var idi.

### *Korinfdə*

**18** **1**Bundan sonra Paul Afinadan çıxıb Korinfə getdi. **2**Orada Pontda doğulan Akila adlı bir Yəhudiyə rast gəldi. O, arvadı Priskila ilə birlikdə İtaliyadan yenicə gəlmişdi.

---

a **17:19** *Areopaq* – yəni qədim Afinada ali məşvərət.

b **17:26** *Bir insandan* – bəzi əlyazmalarda *bir qandan.*

**17:24-25** *1Pad. 8:27; 2Saln. 6:18; Yeş. 42:5*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 193



Çünki Klavdi[a] əmr vermişdi ki, Ro-
mada olan bütün Yəhudilər oradan
çıxsınlar. Paul onların yanına getdi.
**3**Onların peşəsi çadırçılıq idi və eyni
peşə sahibi olan Paul buna görə onla-
rın yanında qalıb çalışdı. **4**Paul hər
Şənbə günü sinaqoqda mübahisə edib
həm Yəhudiləri, həm də Yunanları
inandırırdı.

**5**Sila ilə Timotey Makedoniyadan
gələn kimi Paul özünü tamamilə
kəlama[b] həsr etdi və Yəhudilərə İsanın
Məsih olmasına dair şəhadət edirdi.
**6**Amma Yəhudilər onun əleyhinə çıxa-
raq böhtan atmağa başlayan kimi Paul
yaxasını çırpıb onlara dedi: «Qanınız
öz başınıza dönsün, mən bu işdə tə-
mizəm. Bundan sonra başqa millətlər-
dən olanların yanına gedəcəyəm».
**7**Paul oradan çıxdı, Allaha mömin
olan Titi Yust adlı bir nəfərin evinə
getdi. Onun evi sinaqoqa bitişik idi.
**8**Sinaqoq rəisi Krisp bütün ev əhli ilə
birgə Rəbbə iman etdi. Korinflilərin
bir çoxu Paulu dinləyəndə iman
gətirərək vəftiz oldu. **9**Bir gecə Rəbb
görüntüdə Paula dedi: «Qorxma,
danış, susma. **10**Bax Mən səninləyəm,
heç kimin sənə pisliyi dəyməyəcək,
çünki bu şəhərdə xalqım çoxdur».
**11**Paul orada il yarım qaldı və dayan-
madan xalqa Allahın kəlamını öyrətdi.

**12**Axayya valisi Qalliyo olan zaman
Yəhudilər birləşərək Paula hücum
etdilər və onu valinin hökm kürsüsü
qarşısına çıxartdılar. **13**Belə dedilər:
«Bu adam Allaha qeyri-qanuni şəkildə
ibadət etmək üçün insanları tovlayır».
**14**Paul danışmaq istəyirdi ki, Qalliyo
Yəhudilərə dedi: «Ey Yəhudilər, əgər
ittihamınız bir haqsızlıq və yaxud ağır
cinayət işinə görə olsaydı, sizi səbirlə
dinləməyi məsləhət bilərdim. **15**Amma
məsələlər bir təlimlə, bəzi adlarla və
sizin qanununuzla bağlı olduğu üçün
bu işi özünüz həll edin. Mən belə
şeylərə hakimlik etmək istəmirəm».
**16**Beləliklə, onları hökm kürsüsündən
qovdu. **17**Hamı[c] sinaqoq rəisi Sosteni
tutub hökm kürsüsünün qarşısında
döydülər. Qalliyo isə bu hadisələrə
əhəmiyyət vermədi.

### *Paul Antakyaya qayıdır*

**18**Paul Korinfdə olan imanlı bacı-
qardaşların yanında xeyli gün qaldı və
sonra onlarla vidalaşıb Priskila və
Akila ilə birgə Suriyaya getmək üçün
yelkən açdı. O, Kenxreya limanında
saçını qırxdırmışdı, çünki bir əhd
etmişdi. **19**Onlar Efesə çatanda Pris-
kila ilə Akiladan ayrılaraq sinaqoqa
girdi və Yəhudilərlə mübahisə etməyə
başladı. **20**Ondan xahiş edəndə ki
burada daha bir müddət qalsın, buna
razı olmadı. **21**Amma onlarla vidala-
şanda belə dedi: «Allah[d] qoysa, yenə
yanınıza gələcəyəm». Sonra Efesdən
yelkən açıb getdi. **22**Qeysəriyyəyə
çatandan sonra Yerusəlimə gedərək
imanlılar cəmiyyətinə baş çəkdi və
sonra oradan Antakyaya keçdi. **23**Bir
müddət orada qalandan sonra yola
çıxdı. Qalatiya və Frigiya bölgələrini
gəzib dolaşaraq oradakı şagirdləri
ruhən möhkəmləndirdi.

### *Apollo*

**24**Bu ərəfədə İsgəndəriyyədə do-
ğulmuş Apollo adlı bir Yəhudi Efesə

---

a **18:2** *Klavdi* – yəni o dövrdə hökm sürən Roma imperatoru.
b **18:5** *Kəlama* – bəzi əlyazmalarda *Ruha.*
c **18:17** *Hamı* – bəzi əlyazmalarda *Yunanların hamısı.*
d **18:21** *Allah* – bəzi əlyazmalarda *Mütləq üzümüzə gələn bayramı Yerusəlimdə keçirməliyəm. Allah.*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 194



gəldi. Onun yaxşı natiqliyi var idi və
Müqəddəs Yazıları çox yaxşı bilirdi,
25Rəbb yolunda da təhsil almışdı. O,
ruhda alışıb-yanaraq danışır və yalnız
Yəhyanın vəftizindən xəbəri olduğu
halda İsa ilə bağlı həqiqətləri doğru
öyrədirdi. 26O, sinaqoqda cəsarətlə
danışmağa başladı. Ona qulaq asan
Priskila ilə Akila onu yanlarına çəkib
Allah yolu barədə daha dəqiq izahat
verdilər. 27Apollo Axayyaya getmək
istəyəndə bacı-qardaşlar onu həvəs-
ləndirdilər və oradakı şagirdlərə mək-
tub yazdılar ki, onu yaxşı qarşıla-
sınlar. Apollo oraya çatanda Allahın
lütfü ilə iman edənlərə çox kömək etdi.
28Belə ki Müqəddəs Yazılarla İsanın
Məsih olduğunu sübuta yetirərək
Yəhudilərin iddialarını açıq şəkildə və
güclü surətdə inkar edirdi.

### *Efesdə*

19 1Apollo Korinfdə olarkən Paul
daxili bölgələrdən keçərək Efe-
sə gəldi və orada bir neçə şagirdlə rast-
laşdı. 2Onlara dedilər: «İman etdiyiniz
zaman Müqəddəs Ruhu aldınızmı?»
Onlar dedi: «Müqəddəs Ruhun möv-
cudluğundan belə, xəbərimiz yoxdur».
3Paul onlardan soruşdu: «Elə isə nəyə
əsasən vəftiz oldunuz?» Onlar cavab
verdi: «Yəhyanın vəftizinə əsasən».
4Paul dedi: «Yəhyanın etdiyi vəftiz
tövbə ilə bağlı bir vəftiz idi. Xalqı
özündən sonra Gələnə, yəni İsaya
iman etməyə çağırdı». 5Onlar bunu
eşidən kimi Rəbb İsanın adı ilə vəftiz
oldular. 6Paul əllərini onların üzərinə
qoyanda Müqəddəs Ruh onların
üzərinə endi və onlar başqa dillərdə
danışmağa və peyğəmbərlik etməyə
başladılar. 7Onlar təxminən on iki kişi
idi.

8Sinaqoqa daxil olan Paul cəsarətlə
danışmağa başladı. Üç ay ərzində
onlarla mübahisələr aparır və Allahın
Padşahlığı barədə onları inandırırdı.
9Bəziləri inadkar olub inanmaq istə-
mir və xalqın qarşısında İsa yolunu[a]
pisləməyə başlayırdı. Buna görə Paul
onlardan ayrılıb şagirdlərini də götü-
rüb apardı. O, Tiranın mühazirə ota-
ğında hər gün mübahisələr edirdi. 10Bu
vəziyyət iki il davam etdi. Nəhayət,
istər Yəhudi, istərsə də Yunan – bütün
Asiya vilayəti əhalisi Rəbbin kəlamını
eşitdi.

11Allah Paul vasitəsilə fövqəladə
möcüzələr yaradırdı. 12Belə ki Paulun
bədəninə toxunan dəsmallar və belinə
bağladığı önlüklər belə, götürülüb
xəstələrin üstünə qoyulanda insanların
xəstəlikləri yox olur, şər ruhlar çıxırdı.
13Bəzi ətrafı gəzib-dolaşan Yəhudi
cindarlar da şər ruhlara əsir olanlara
Rəbb İsanın adını çəkərək deyirdilər:
«Paulun vəz etdiyi İsanın adı ilə sizə
əmr edirəm!» 14Yəhudilərin Skeva adlı
başçı kahinin yeddi oğlu bu işlə
məşğul idi. 15Bir dəfə şər ruh onlara
cavab verdi: «İsanı tanıyıram, Paul
haqqında da hər şey bilirəm. Bəs siz
kimsiniz?» 16Daxilində şər ruh olan
adam onların üstünə hücum çəkdi,
hamısını təpiyinin altına salaraq məğ-
lub etdi. Belə ki onlar o evdən lüt-
üryan və yaralı halda qaçdı.

17Bu xəbər Efesdə yaşayan bütün
Yəhudilərə və Yunanlara çatdı. Ha-
mısını bir vahimə bürüdü və Rəbb
İsanın adının nüfuzu böyüdü. 18İman
edənlərin çoxu gəlib öz əməllərini açıq

---

a **19:9** *İsa yolunu* – hərfi tərcümədə *Yolu.*

**19:4** *Mat. 3:11; Mark 1:4,7-8; Luka 3:4,16; Yəh. 1:26-27*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 195



etiraf edirdi. 19Cadugərliklə məşğul
olan bir dəstə insan da öz kitablarını
yığıb hamının qarşısında yandırdı.
Kitablarının qiyməti hesablananda
məlum oldu ki, əlli min gümüş pula
bərabər idi. 20Beləliklə, Rəbbin kə-
lamı qüdrətlə böyüyüb təsirini artırır-
dı.

21Bunlar baş verəndən sonra Paul
qərara gəldi ki, Makedoniya və Axay-
yadan keçərək Yerusəlimə getsin. O
dedi: «Oraya gedəndən sonra gərək
Romanı da görəm». 22Xidmətçilərin-
dən ikisini – Timoteylə Erastı Make-
doniyaya göndərərək özü bir müddət
Asiya vilayətində qaldı.

### *Efesdəki qarışıqlıq*

23O ərəfədə İsa yolu[a] ilə bağlı böyük
bir qarışıqlıq yarandı. 24Dimitri adlı
bir zərgər gümüşdən ilahə Arte-
midanın ev səcdəgahlarını düzəldirdi
və sənətkarlara çoxlu gəlir gətirirdi.
25O, sənətkarları və bu cür işlə məşğul
olanları bir yerə toplayıb belə dedi:
«Ay kişilər, bilirsiniz ki, gəlirimiz bu
işdən asılıdır. 26Amma bu Paul deyir
ki, əl işi olan allahlar həqiqi allahlar
deyil. Yalnız Efesdə deyil, demək olar
ki, bütün Asiya vilayətində nə qədər
insanı tovlayıb azdırdığını görmüsü-
nüz və eşitmisiniz. 27Onda böyük bir
təhlükə ilə üzləşirik. Bu həm bizim
sənətimizin nüfuzunu itirə bilər, həm
də ulu ilahə Artemidanın məbədini
gözdən sala bilər. Bununla da bütün
Asiya vilayətinin və bütün dünyanın
ibadət etdiyi Artemidanın ululuğu
heçə çıxar».

28Oradakılar bunu eşidəndə bərk
hiddətləndilər və qışqıra-qışqıra dedi-
lər: «Efes ilahəsi Artemida uludur!»
29Şəhər bir-birinə qarışdı. Xalq Pa-
ulun yol yoldaşları olan Makedoniyalı
Qayla Aristarxı tutub sürüyərək
birlikdə teatra doluşdu. 30Paul istədi
ki, xalqın arasına girsin, amma
şagirdlər onu buraxmadı. 31Hətta
Paulun dostları olan Asiya vilayətinin
sədrlərinin bəziləri də ona xəbər
göndərib yalvardı ki, teatra ayaq
basmasın. 32Teatrdakı yığıncaqda
aləm qarışmışdı, hər ağızdan bir avaz
gəlirdi. Onların çoxu isə bilmirdi ki,
buraya nə üçün gəlib. 33Yəhudilər
İsgəndəri qarşıya çıxaranda izdihamın
içərisindən bəziləri hadisəni onunla
əlaqələndirdi. O isə xalqın diqqətini
cəmləşdirmək üçün əlini qaldırdı və
onların qarşısında özünü müdafiə
etmək istədi. 34Amma xalq onun
Yəhudi olduğunu biləndə bir səslə iki
saata yaxın «Efes ilahəsi Artemida
uludur!» deyə qışqırışdı. 35İzdihamı
sakitləşdirən şəhərin icra məmuru
dedi: «Ey Efeslilər, kim bilmir ki, Efes
şəhəri ulu Artemida məbədinin və
göydən gələn heykəlinin keşikçisidir?
36Bunları heç kim inkar edə bilməz.
Buna görə sakit olmanız və fikir-
ləşmədən bir iş görməməyiniz lazım-
dır. 37Buraya gətirdiyiniz adamlar nə
məbədimizi soydu, nə də ilahəmizi
söydü. 38Əgər Dimitrinin və onun
sənətkar dostlarının kimdən şikayəti
varsa, məhkəmələr açıqdır, valilər də
var. Qoy bir-birlərini orada ittiham
etsinlər. 39Sizin araşdıracağınız başqa
hallar varsa, bunun da qanuni bir
yığıncaqda həll olması lazımdır.
40Bugünkü hadisələrə görə üsyan
qaldırdığımız üçün ittiham olunmaq
təhlükəsi qarşısındayıq. Biz bu səbəb-
siz iğtişaşa bəraət qazandıra bilmə-

a **19:23** *İsa yolu* – hərfi tərcümədə *Yol.*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 196



rik». **41**O bu sözləri deyərək o, yığıncağı dağıtdı.

### *Troasda*

**20** **1**Hay-küy sakitləşəndən sonra Paul şagirdləri çağırıb ruhlandırdı. Sonra onlarla vidalaşaraq Makedoniyaya getmək üçün yola çıxdı. **2**O tərəfləri gəzib-dolaşaraq imanlılarla çoxlu söhbətlər aparıb onları ruhlandırandan sonra Yunanıstana getdi. **3**Orada üç ay qaldı və dəniz yolu ilə Suriyaya getmək istəyirdi ki, ona qarşı Yəhudilərin hazırladığı suiqəsdə görə Makedoniya yolu ilə qayıtmaq qərarına gəldi. **4**Pir oğlu Veriyalı Sopater, Saloniklilərdən Aristarx və Sekund, Derbeli Qay, Timotey, Asiyalılardan Tixik və Trofim onu müşayiət edirdi. **5**Bunlar bizdən əvvəl gedib bizi Troasda gözlədilər. **6**Biz də Mayasız Çörək bayramından sonra Filipidən dəniz yolu ilə beş günə Troasa gələrək onlarla görüşdük. Orada yeddi gün qaldıq.

**7**Həftənin ilk günündə[a] çörək bölmək üçün bir yerə yığıldığımız zaman Paul camaatla söhbət apardı. Ertəsi gün onlardan ayrılacaqdı, ona görə söhbəti gecə yarısına qədər davam etdirdi. **8**Toplandığımız yuxarı mərtəbədəki otaqda çoxlu çıraqlar yanırdı. **9**Eftik adlı bir yeniyetmə pəncərədə oturmuşdu. Paul söhbəti uzadanda Eftiki dərin yuxu apardı. Yuxuya gedən kimi o, üçüncü mərtəbədən aşağı düşdü və yerdən onu qaldıranda o, ölü vəziyyətində idi. **10**Paul aşağı enib yeniyetmənin üstünə əyildi və onu qucaqlayaraq dedi: «Narahat olmayın, indi canı sağdır». **11**Təkrar yuxarı qalxıb çörək böldü və yemək yedi. Gün doğana qədər onlarla uzun-uzadı söhbət aparandan sonra oradan ayrıldı. **12**Oğlanı sağ-salamat apardılar və bu hadisədən çox ruhlandılar.

**13**Biz irəli gedərək gəmiyə mindik və Assosa tərəf üzdük. Çünki Paulu oradan götürməli idik. O, quru ilə getmək istədiyi üçün bunu belə nizamlamışdı. **14**O bizi Assosda qarşılayanda onu gəmiyə mindirdik və Mitiliniyə gəldik. **15**Oradan da dənizdən üzərək səhəri gün Xios adasının qarşısına və bir gündən sonra isə Samosa çatdıq. Ertəsi gün[b] Miletə gəldik. **16**Çünki Paul Asiya vilayətində vaxt itirməmək üçün Efesi ötüb keçmək qərarına gəlmişdi. O tələsirdi ki, imkan tapıb Əllinci Gün bayramında Yerusəlimdə olsun.

### *Paul Efes cəmiyyətinin ağsaqqalları ilə vidalaşır*

**17**Paul Miletdən Efesə xəbər göndərərək cəmiyyət ağsaqqallarını yanına çağırtdırdı. **18**Yanına gələndə onlara belə dedi: «Asiya vilayətinə qədəm basdığım birinci gündən bəri sizinlə olduğum dövrdən bu vaxta qədər özümü necə apardığım sizə məlumdur. **19**Yəhudilərin qəsd-qərəzi vasitəsilə sınaqlardan keçərkən Rəbbə tam itaətkarlıqla, göz yaşı içində qulluq edirdim. **20**Xeyirli olan hər şeyi sizə bəyan edərək istər açıq, istərsə də evdən-evə gəzib-dolaşaraq təlim verməkdən çəkinmədim. **21**Həm Yəhudiləri, həm də Yunanları tövbə edib Allaha tərəf dönməyə və Rəbbimiz İsaya iman gətirməyə çağırdım.

a **20:7** *Həftənin ilk günündə* – yəni bazar günündə.
b **20:15** *Ertəsi gün* – bəzi əlyazmalarda *Troqillidə qaldıqdan sonra ertəsi gün.*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 197



**22**İndi də Ruhun təkidi ilə Yerusə-
limə gedirəm və orada başıma nə
gələcəyini bilmirəm. **23**Lakin Müqəd-
dəs Ruh hər şəhərdə xəbərdarlıq edirdi
ki, məni zəncirlər və əziyyətlər gözlə-
yir. **24**Öz canıma heç əhəmiyyət ver-
mirəm, onu qiymətləndirmirəm. Mənə
kifayətdir ki, yolumu[a] – Rəbb İsanın
mənə tapşırdığı kimi Allahın lütfünü
göstərən Müjdəni şəhadətetmə xidmə-
tini başa çatdırım.

**25**İndi aranızda dolaşıb Padşahlıq
barədə vəz etdiyim sizlərdən heç bi-
riniz mənim üzümü bir də görmə-
yəcək. **26**Ona görə bu gün bunu sizə
bəyan etmək istəyirəm ki, mən təmi-
zəm, heç kimin qanına bais olmamı-
şam. **27**Çünki mən çəkinmədən Alla-
hın bütün iradəsini sizə çatdırmışam.
**28**Həm özünüzə, həm də Müqəddəs
Ruhun sizi nəzarətçilər təyin etdiyi
bütün sürüyə diqqətlə baxın. Allahın
Öz Oğlunun qanı bahasına əldə etdiyi
bu cəmiyyətini bəsləyin. **29**Bilirəm ki,
mən gedəndən sonra sürüyə rəhm
etməyən yırtıcı canavarlar aranıza
soxulacaq. **30**Aranızdan təhrif edilmiş
sözlər deyən, şagirdləri özlərinin ar-
dınca çəkmək istəyən adamlar çı-
xacaq. **31**Buna görə oyaq olun. Üç il
boyu, fasiləsiz, gecə-gündüz göz yaşı
tökərək hər birinizə necə nəsihət
verdiyimi yada salın.

**32**İndi isə mən sizi Allaha və Onun
lütfü barədəki kəlamına əmanət edi-
rəm. Bu kəlam sizi inkişaf etdirib təq-
dis olunmuş bütün insanlar arasında
irsə qovuşdurmağa qadirdir. **33**Mən
heç kimin nə qızılına, nə gümüşünə, nə
də pal-paltarına göz dikmişəm. **34**Siz
də bilirsiniz ki, bu əllər həm mənim,
həm də mənimlə olanların ehtiyacla-
rını təmin etdi. **35**Gördüyüm hər işdə
Rəbb İsanın “vermək almaqdan daha
çox bəxtiyarlıq gətirər” sözünü yaddan
çıxarmayıb belə əmək sərf edərək
zəiflərə kömək etməyin vacibliyini sizə
göstərdim».

**36**Paul bu sözləri söyləyəndən sonra
diz çöküb onlarla birlikdə dua etdi.
**37**Sonra hamısı ağlayaraq Paulun
boynuna sarıldı və onu öpdü. **38**Onlar
ən çox «mənim üzümü bir də görməyə-
cəksiniz» sözündən kövrəldilər. Sonra
onu gəmiyə qədər yola saldılar.

### *Yerusəlimə səyahət*

**21** **1**Onlardan ayrılıb dənizə çıxan-
da birbaşa Kosa getdik, səhəri
gün isə Rodosa, oradan da Pataraya
keçdik. **2**Finikiyaya gedən bir gəmi
tapdıq və ona minib dənizlə getdik.
**3**Kipri gördük və onun cənubundan
keçdik. Suriya istiqamətinə getdik və
Sur şəhərində sahilə çıxdıq. Gəmi
yükünü orada boşaltmalı idi. **4**Orada
şagirdləri axtarıb tapdıq və yanlarında
bir həftə qaldıq. Şagirdlər Ruhun təsiri
ilə Paula xəbərdarlıq etdilər ki,
Yerusəlimə getməsin. **5**Amma oradakı
günlərimiz başa çatanda bu şəhərdən
çıxıb yolumuza davam etdik. İmanlı-
ların hamısı öz arvad-uşaqları ilə bəra-
bər bizi şəhərin kənarına qədər ötürdü
və sahildə diz çökərək dua etdik. **6**Bir-
birimizlə vidalaşandan sonra biz gə-
miyə mindik, onlar da evlərinə qayıt-
dılar.

**7**Surdan dəniz səyahətimizə davam
edərək Ptolemaisə gəldik və orada
imanlı bacı-qardaşlara baş çəkib bir
gün yanlarında qaldıq. **8**Ertəsi gün

a **20:24** *Yolumu* – bəzi əlyazmalarda *sevinə-sevinə yolumu.*
**20:24** *2Tim. 4:7* **21:8** *Həv. 6:1-6*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 198



onlardan ayrılıb Qeysəriyyəyə gəldik.
Yeddi köməkçidən biri olan müjdəçi
Filipin evinə gedib orada qaldıq. **9**Bu
kişinin peyğəmbərlik edən dörd subay
qızı var idi. **10**Oraya çatandan bir neçə
gün sonra Yəhudeyadan Aqab adlı bir
peyğəmbər gəldi. **11**O bizə yaxınlaşıb
Paulun kəmərini götürüb öz əllərini və
ayaqlarını bağlayaraq dedi: «Müqəd-
dəs Ruh belə deyir: "Yəhudilər bu
kəmərin sahibini Yerusəlimdə belə
bağlayıb başqa millətlərə təslim
edəcək"». **12**Bu sözləri eşidəndə həm
biz, həm də oranın sakinləri Paula
yalvardıq ki, Yerusəlimə getməsin.
**13**Buna cavab olaraq Paul belə dedi:
«Nə olub? Niyə ağlayıb ürəyimi sız-
ladırsınız? Mən Rəbb İsanın adı uğ-
runda Yerusəlimdə təkcə əl-ayağımın
bağlanmasına deyil, ölümə də hazı-
ram» **14**Paulu razı sala bilmədikdə
«Qoy Rəbbin iradəsi olsun!» deyərək
susduq.

**15**Bir müddət keçəndən sonra biz
hazırlıq işlərini görüb Yerusəlimə tərəf
getdik. **16**Qeysəriyyədə yaşayan şa-
girdlərin bəzisi də bizimlə birgə gəldi.
Onlar bizi ilk şagirdlərdən biri olan
Kiprli Minasonun evinə apardı, çünki
biz onların evində qalacaqdıq. **17**Yeru-
səlimə çatanda imanlı bacı-qardaşlar
bizi sevinclə qarşıladı. **18**Ertəsi gün Pa-
ulla birlikdə Yaqubu görməyə getdik.
Cəmiyyət ağsaqqallarının hamısı
oraya yığılmışdı. **19**Paul onlardan hal-
əhval tutandan sonra öz xidməti ilə
əlaqədar olaraq Allahın başqa millət-
lər arasında gördüyü işlərdən ətraflı
məlumat verdi. **20**Bunları eşidəndə
Allahı izzətləndirdilər. Paula dedilər:
«Görürsənmi, qardaş, Yəhudilər ara-
sında on minlərlə imanlı var və hamısı
Qanunun qeyrətini çəkir. **21**Onlar
sənin barəndə xəbər tutublar ki, başqa
millətlər arasında yaşayan bütün
Yəhudilərə oğullarını sünnət etməyib
adət-ənənələrimizə görə yaşamamağı
və Musadan dönməyi öyrədirsən.
**22**İndi nə edək? Mütləq[a] sənin bura
gəldiyini eşidəcəklər. **23**Ona görə sənə
dediklərimizə əməl et. Bizim aramızda
əhd edən dörd kişi var. **24**Bunları
yanına al və onlarla birgə paklanma
mərasiminə qoşul. Başlarını qırxdır-
maq üçün qurban xərclərini sən çək.
Bununla da hamı biləcək ki, sənin
haqqında eşitdikləri əsassızdır, sən də
Qanuna riayət edirsən. **25**Başqa millət-
lərdən olan imanlılara gəlincə, biz
qərara alıb onlara məktub vasitəsilə
yazmışıq ki, bütlərə[b] təqdim olunan
qurbanların ətini, boğularaq öldürülən
heyvanların ətini və qan yeməsinlər,
həmçinin özlərini əxlaqsızlıqdan sax-
lasınlar». **26**Bundan sonra Paul bu
dörd kişini yanına alıb ertəsi gün
onlarla bərabər özünü pak etdi. Sonra
məbədə girərək paklanma dövrünün
nə vaxt qurtaracağını, hər birinin adı-
na nə vaxt qurban təqdim ediləcəyini
elan etdi.

### *Paulun həbsi*

**27**Yeddi günlük müddət qurtarmaq
üzrə Asiya vilayətindən olan Yəhu-
dilər Paulu məbəddə görəndə bütün
izdihamı təşvişə salaraq onu yaxala-
dılar **28**və qışqırdılar: «Ey İsraillilər,
kömək edin! Hər yerdə hər kəsə, xal-
qımıza, Qanuna və bu Müqəddəs mə-

---

a **21:22** *Mütləq* – bəzi əlyazmalarda *Mütləq camaat buraya yığışacaq, çünki.*

b **21:25** *Bütlərə* – bəzi əlyazmalarda *belə qaydalara deyil, yalnız bunlara riayət etsinlər: bütlərə.*

**21:10** *Həv. 11:28* **21:25** *Həv. 15:28-29*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 199



kana qarşı təlim öyrədən adam budur.
Həmçinin məbədə bəzi Yunanları gə-
tirərək bu Müqəddəs məkanı murdar-
ladı». **29**Bu Yəhudilər Efesli Trofimi
əvvəllər şəhərdə Paulun yanında gör-
dükləri üçün elə bilirdilər ki, onu Paul
məbədə gətirib. **30**Bütün şəhər oyandı.
Camaat hər tərəfdən qaçıb-gələrək
Paulu tutub məbəddən bayıra sürüdü.
Dərhal məbəd qapıları bağlandı.
**31**Onlar Paulu öldürməyə çalışırdı ki,
bütün Yerusəlimin təşvişə düşməsi
xəbəri Roma alayının minbaşısına
çatdırıldı. **32**Minbaşı dərhal yüzbaşı-
larla əsgərləri özü ilə götürərək izdi-
ham olan yerə qaçdı. Minbaşı ilə
əsgərləri görən camaat Paulu döyməyi
dayandırdı. **33**O zaman minbaşı yaxı-
na gəlib Paulu tutdu və əmr etdi ki,
onu qoşa zəncirlə bağlasınlar. Sonra
soruşdu: «Bu adam kimdir? Nə edib?»
**34**İzdiham içində hər ağızdan bir avaz
gəlir, qışqırışırdılar. Hay-küydən min-
başı heç nə müəyyənləşdirə bilmədi,
ona görə Paulun qalaya aparılmasını
əmr etdi. **35**Paul pilləkəndə olanda
xalq elə qızışmışdı ki, əsgərlər onu
əlləri üstündə aparmalı oldu. **36**Çünki
izdiham onun ardınca düşüb qışqırır-
dı: «Öldürün onu!»

### *Paulun özünü müdafiəsi*

**37**Paul qalaya gətirilməkdə ikən o,
minbaşıdan soruşdu: «Səndən bir söz
soruşmaq olar?» Minbaşı dedi: «Sən
Yunan dilini bilirsən? **38**Sən bu yaxın-
larda iğtişaş yaratmağa başlayan dörd
min qatili[a] səhraya aparan Misirli
deyilsənmi?» **39**Paul dedi: «Mən Yəhu-
diyəm, Kilikiyanın Tarsus şəhərində-
nəm, məşhur bir şəhərin vətəndaşı-
yam. Rica edirəm, bu xalqa bir neçə
söz deməyə izin ver». **40**Minbaşı icazə
verəndən sonra Paul pilləkənlərin
üstünə çıxıb diqqəti cəlb etmək üçün
xalqa əli ilə işarə etdi. Dərin sükut
çökəndə İbrani dilində danışmağa
başlayaraq dedi:

**22** **1**«Qardaşlar və atalar, indi
mənim özümü müdafiəmə
qulaq asın!» **2**Paulun onlarla ibranicə
danışdığını eşidəndə daha dərin sükut
yarandı.

Paul sözünə davam etdi: **3**«Mən bir
Yəhudiyəm, Kilikiyanın Tarsus şəhə-
rində doğuldum. Bu Yerusəlim şəhə-
rində isə böyüyüb Qamlielin yanında
ata-babalarımızın Qanununa bağlı
ciddi bir təlim almışam. Hamınızın
bu gün etdiyi kimi mən də Allah
naminə qeyrət çəkirdim. **4**İsa yolun-
da[b] olanları ölüncəyə qədər təqib
edərdim və qadın-kişi bilmədən
onların əl-qolunu bağlayıb zindana
salardım. **5**Mənim dediklərim barədə
baş kahin və bütün ağsaqqallar məc-
lisi də şəhadət edə bilər. Hətta mən
onlardan Dəməşqdəki soydaşlarımıza
yazılmış bir məktub alaraq oradakı
İsa yolunda olanların əl-qolunu bağ-
layıb cəzalandırmaq üçün Yerusəlimə
gətirməyə gedirdim.

**6**Mən günortaya yaxın yolda, Də-
məşqə yaxınlaşmaqda ikən birdən-
birə göydən böyük bir işıq ətrafımda
parladı. **7**Mən yerə yıxıldım və eşitdim
ki, bir səs mənə belə deyir: “Şaul,
Şaul, niyə Məni təqib edirsən?” **8**Mən
soruşdum: “Ey Ağam, Sən kimsən?”
Səs mənə dedi: “Mən sənin təqib

a **21:38** *Qatil* – bu orijinalda *sikari* sözü olub latın dilində *xəncər işlədən* mənasını verir. Sikarilər Roma işğalçılarına qarşı mübarizə edərkən terrora əl atan ifratçı yəhudilər idi.

b **22:4** *İsa yolunda* – hərfi tərcümədə *Yolda.*

**21:29** *Həv. 20:4* **22:2-3** *Həv. 5:34-39* **22:4-5** *Həv. 8:3; 26:9-11*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 200



etdiyin Nazaretli İsayam”. 9Yanım-
dakılar işığı görsələr də,[a] mənimlə
danışanın səsini eşitmədilər. 10Mən
dedim: “Ya Rəbb, mən nə edim?”
Rəbb mənə dedi: “Qalx, Dəməşqə get,
icra etməyin üçün təyin edilən hər şey
orada sənə deyiləcək”. 11O işığın
parlaqlığından gözlərim tutuldu.
Yanımda olanlar əllərimdən tutub
məni Dəməşqə apardı.

12Orada Xananya adlı bir mömin
kişi var idi. Bu adam Qanuna əməl
edir və o şəhərdə yaşayan Yəhudilər
arasında hörmət sahibi idi. 13O mənim
yanıma gəlib dedi: “Qardaşım Şaul,
qoy gözlərin açılsın”. Dərhal gözlərim
açıldı və onu gördüm. 14O mənə dedi:
“Ata-babalarımızın Allahı səni seçdi
ki, Onun iradəsini biləsən və Saleh
Olanı görüb ağzından bir səs eşidəsən.
15Çünki görüb-eşitdiklərini bütün
insanlara yayaraq Onun üçün şəhadət
edəcəksən. 16İndi nə gözləyirsən?
Qalx, vəftiz ol və Onun adını çağıra-
raq günahlarını yu”.

17Mən Yerusəlimə qayıdıb məbəd-
də dua etməkdə idim ki, fikrimi bir
görüntü apardı 18və Rəbbi gördüm. O
mənə dedi: “Tez ol, dərhal Yeru-
səlimi tərk et, çünki Mənim barəmdə
etdiyin şəhadəti qəbul etməyəcəklər”.
19Mən dedim: “Ya Rəbb, bilirlər ki,
mən sinaqoqdan-sinaqoqa gedərək
Sənə iman edənləri həbs edir və
döyürdüm. 20Hətta Sənin uğrunda
şəhid olan Stefanın qanı töküləndə
mən də orada idim. Edilənlərə razı
olub onu öldürənlərin üst geyimlərini
qoruyurdum”. 21Rəbb də mənə dedi:
“Get, Mən səni uzaqlara, başqa
millətlərin yanına göndərəcəyəm”».

### *Roma vətəndaşı Paul*

22Paula buraya qədər qulaq asanlar
bu sözdən sonra haray salıb dedilər:
«Beləsini yer üzündən silib-atmaq
lazımdır! O yaşamağa layiq deyil!»
23Onlar belə hay-küy qopararaq pal-
tarlarını yelləyib havaya toz qaldıran-
da 24minbaşı əmr etdi ki, Paulu qalaya
salsınlar. Onların niyə belə hay-küy
qoparmalarının səbəbini bilmək üçün
onu qamçılatmaqla sorğuya çəkmək
istədi. 25Onu qamçılatmaq üçün bağ-
layanda Paul orada dayanan yüzba-
şıya dedi: «Məhkum olmamış Roma
vətəndaşını qamçılatmağa icazəniz
varmı?» 26Yüzbaşı bunu eşidən kimi
minbaşının yanına gəlib xəbər verərək
dedi: «Nə edəcəksən? Bu adam Roma
vətəndaşıdır». 27Minbaşı Paulun yanı-
na gəlib soruşdu: «De görək, sən Ro-
ma vətəndaşısan?» Paul dedi: «Bəli».
28Minbaşı cavabında «mən nə qədər
pula bu vətəndaşlığı əldə etmişəm»
dedi. Paul isə «amma mən doğulandan
Roma vətəndaşıyam» dedi. 29Onu sor-
ğuya çəkmək istəyənlər dərhal onun
yanından geri çəkildi. Minbaşı qolla-
rını bağladığı Paulun Roma vətəndaşı
olduğunu öyrənərkən qorxdu.

### *Paul Ali Şuranın qarşısında*

30Minbaşı ertəsi gün Yəhudilərin
Paulu nədə ittiham etdiklərini dəqiq
öyrənmək istədi. Ona görə Paulu azad
etdi. Minbaşı əmr verdi ki, başçı
kahinlərlə bütün Ali Şura toplaşsın.
Sonra Paulu aşağı endirib onların
qarşısına gətirdi.

23 1Ali Şuranı diqqətlə nəzərdən
keçirən Paul dedi: «Qardaşlar,

a **22:9** *Görsələr də* – bəzi əlyazmalarda *görsələr də, qorxuya düşsələr də.*
**22:20** *Həv. 7:58*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 201



mən bu günəcən Allahın qarşısında
təmiz vicdanla yaşamışam». **2**Baş ka-
hin Xananya Paulun yanında duran-
lara əmr etdi ki, onun ağzından vur-
sunlar. **3**Bundan sonra Paul ona dedi:
«Ey üzü ağardılan divar, səni Allah
vuracaq! Həm oturub Qanuna əsasən
məni mühakimə edirsən, həm də Qa-
nunu pozaraq məni döymək üçün əmr
verirsən». **4**Yanında duranlar ona de-
dilər: «Sən Allahın baş kahinini söyür-
sənmi?» **5**Paul dedi: «Qardaşlar, onun
baş kahin olduğunu bilmirdim. Əlbət-
tə, "xalqın başçısı barədə pis söz de-
mə" deyə yazılıb».

**6**Onların bir hissəsinin sadukey,
digər hissəsinin isə farisey olduğunu
bilən Paul Ali Şuraya nida etdi: «Ey
qardaşlar, mən farisey oğlu fariseyəm.
Ölülərin dirilməsinə ümid bəslədiyim
üçün burada mühakimə olunuram».
**7**Paulun bu sözündən sonra farisey-
lərlə sadukeylər arasında çəkişmə
başladı və toplantı iki hissəyə ayrıldı.
**8**Çünki sadukeylər iddia edir ki,
ölümdən dirilmə, mələk və ruh yoxdur.
Əksinə, fariseylər bunların hamısına
inanır. **9**Toplantıda böyük bir hay-küy
yarandı. Farisey tərəfini tutan bəzi
ilahiyyatçılar qalxıb dava yaradaraq
belə deyirdi: «Bu adamda heç bir
günah görmürük. Nə olsun ki, onunla
bir ruh və yaxud mələk danışıb.»[a]
**10**Çəkişmə o qədər qızışdı ki, minbaşı
onların Paulu parçalayacağından
qorxdu. O, əsgərlərə əmr etdi ki, aşağı
enib Paulu zorla onların arasından
çıxararaq qalaya aparsınlar.

**11**O gecə Rəbb Paulun yanında da-
yanıb dedi: «Cəsarətli ol, Yerusəlimdə
Mənim haqqımda etdiyin şəhadəti
Romada da etməyin lazımdır».

### *Paula qarşı sui-qəsd*

**12**Səhər açılanda Yəhudilər öz
aralarında Paula sui-qəsd hazırlaya-
raq and içdilər: «Əgər Paulu öldür-
məmiş bir şey yeyib-içəriksə, lənətə
gələk!» **13**Bu sui-qəsdə qoşulanların
sayı qırxdan artıq idi. **14**Bu adamlar
başçı kahinlərlə ağsaqqalların yanına
gəlib belə dedilər: «Biz qəti and iç-
mişik: "Əgər Paulu öldürməmiş bir şey
yeyib-içəriksə, lənətə gələk!" **15**İndi siz
Ali Şura ilə birgə guya Paulun işinə
daha dəqiq baxmaq istəyərək minba-
şıdan xahiş edin ki, onu yanınıza
gətirsin. Paul buraya gəlməmiş biz onu
öldürməyə hazır olacağıq». **16**Lakin
Paulun bacısı oğlu onların pusqu qur-
duğunu eşidib qalaya girdi və Paula
xəbər verdi. **17**Paul yüzbaşılardan
birini yanına çağırıb dedi: «Bu cavanı
minbaşının yanına apar, ona çatdırı-
lası bir xəbəri var». **18**Yüzbaşı cavanı
götürüb minbaşının yanına apardı və
dedi: «Məhbus Paul məni çağırıb
xahiş etdi ki, bu oğlanı sənin yanına
aparım. Sənə bir sözü var». **19**Minbaşı
cavanın əlindən tutub bir tərəfə çəkdi
və soruşdu: «Mənə nə demək istəyir-
sən?» **20**Cavan dedi: «Yəhudilər belə
razılığa gəlib ki, guya Paulun işinə
daha dəqiq baxmaq istəyirlər, ona
görə sabah səndən onun Ali Şuraya
gətirilməsini xahiş edəcəklər. **21**Amma
sən onların sözünə qulaq asma, çünki
qırx nəfərdən artıq kişi "Əgər Paulu
öldürməmiş bir şey yeyib-içəriksə,
lənətə gələk!" deyə and içib pusquda

a **23:9** *Danışıb* – bəzi əlyazmalarda *danışıb. Gəlin Allaha qarşı çıxmayaq.*
**23:3** *Mat. 23:27-28* **23:5** *Çıx. 22:28* **23:6** *Həv. 26:5; Flp. 3:5*
**23:8** *Mat. 22:23-24; Mark 12:18-19; Luka 20:27-28*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 202



gözləyir. Onlar hazır dayanıb sənin razılığını gözləyir». **22**Minbaşı ona belə tapşırdı: «Bunları mənə xəbər verdiyini heç kimə demə». Sonra oğlanı evə göndərdi.

### *Paul Qeysəriyyəyə göndərilir*

**23**Minbaşı yüzbaşılardan ikisini yanına çağırıb belə dedi: «Gecənin üçüncü saatı[a] Qeysəriyyəyə getmək üçün iki yüz piyada, yetmiş atlı və iki yüz nizəçi hazırlayın. **24**Həmçinin minmək üçün heyvanlar gətirin və Paulu sağ-salamat vali Feliksə çatdırın». **25**Sonra bu cür məktub yazdı:

> **26**«Möhtərəm vali Feliksə Klavdi Lisiyadan salamlar!
>
> **27**Bu kişini Yəhudilər tutub öldürmək istəyirdi. Mən biləndə ki bu adam Roma vətəndaşıdır, özümü yetirib əsgərlərlə onu xilas etdim. **28**Onu nədə təqsirləndirmələrini bilmək üçün Yəhudilərin Ali Şurasının qarşısına çıxartdım. **29**Öyrəndim ki, onu özlərinin Qanunu ilə bağlı məsələlərdə ittiham edirlər, amma ona ölüm yaxud həbsə layiq cəza vermək üçün heç bir əsas yoxdur. **30**Mənə çatdırılanda ki bu kişiyə qarşı bir sui-qəsd qurulub, dərhal onu sənin yanına göndərdim. Onu ittiham edənlərin də şikayətlərini sənə bildirmələrini əmr etdim».[b]

**31**Əsgərlər onlara verilən əmrə əməl edərək gecə ikən Paulu götürüb Antipatrisə apardılar. **32**Ertəsi gün atlıları Paulla birlikdə yollarına davam etmək üçün ötürəndən sonra qalaya qayıtdılar. **33**Atlılar Qeysəriyyəyə çatan kimi məktubu valiyə verəndə Paulu da ona təslim etdilər. **34**Vali məktubu oxuyandan sonra Paulun hansı vilayətdən olduğunu soruşdu. Öyrənəndə ki Kilikiyadandır, **35**belə dedi: «Səni ittiham edənlər gələndə sənin işinə baxacağam». Bundan sonra əmr verdi ki, Paulu Hirod sarayında nəzarət altında saxlasınlar.

### *Paul vali Feliksin qarşısında*

**24** **1**Bundan beş gün sonra baş kahin Xananya, bəzi ağsaqqallar və Tertul adlı bir vəkil Qeysəriyyəyə gəlib Pauldan edilən şikayətləri valiyə çatdırdı. **2**Paul çağırılanda Tertul onu ittiham etməyə başladı: «Möhtərəm Feliks, sənin sayəndə uzun müddətdir ki, əmin-amanlıq içində yaşamaqdayıq. Sənin uzaqgörənliyinlə bu millət üçün keçirdiyin islahatları **3**hər yerdə, hər zaman dərin minnətdarlıqla qəbul edirik. **4**Vaxtınızı çox almaq istəmirəm. Rica edirəm, lütfkarlığınla bizi bir qədər dinlə. **5**Bizim gəldiyimiz nəticəyə görə bu kişi dünyanın hər yerində olan Yəhudilər arasında iğtişaşlar salan bir araqarışdırandır. O, Nəsrani[c] təriqətinin başçılarındandır. **6**Bu insan hətta məbədi murdarlamağa çalışdı, amma biz onu yaxaladıq. **7** **8**Onu[d] istintaq etsən, bütün bu ittihamlarımızın doğru olduğunu özündən öyrənə bilərsən». **9**Oradakı Yəhudilər də deyilənlərin doğru olduğunu təsdiqləyərək bu işə qoşuldu.

**10**Vali Paula işarə verəndə o cavab

---

a **23:23** *Gecənin üçüncü saat* – hazırkı vaxtla axşam saat doqquz.

b **23:30** *Etdim* – bəzi əlyazmalarda *etdim. Salamat qal.*

c **24:5** *Nəsrani* – yəni məsihçi.

d **24:6-8** *Yaxaladıq.* **7** **8** *Onu* – bəzi əlyazmalarda *yaxaladıq və bizim Qanunumuza münasib şəkildə mühakimə etmək istədik.* **7** *Lakin minbaşı Lisiya gəlib böyük güc tətbiq edərək onu bizim əlimizdən alıb sənin yanına göndərdi.* **8** *Onu ittihamlandıranlara əmr etdi ki, sənin yanına gəlsinlər. Onu.*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 203



verdi: «Bilirəm ki, sən neçə illərdir bu
millətin hakimisən. Buna görə sənin
qarşında özümü müdafiə etməyimə
sevinirəm. **11**Sən özün də öyrənə bilər-
sən ki, ibadət etmək məqsədi ilə Yeru-
səlimə gedişimdən bu yana sadəcə on
iki gün keçib. **12**Bu adamlardan heç
biri görməyib ki, mən məbəddə,
sinaqoqlarda yaxud şəhərin hansısa
bir yerində kiminləsə mübahisə edim
və yaxud camaatı təşvişə salım. **13**Bu
anda mənə qarşı etdikləri ittihamları
sənin hüzurunda sübut edə bilmirlər.
**14**Lakin ata-babalarımızın Allahına
onların təriqət adlandırdığı İsa yo-
lunun[a] ardıcılı olaraq ibadət etdiyimi
sənin qarşında iqrar edirəm. Qanunda
olan və Peyğəmbərlərin kitablarında
yazılan hər şeyə inanıram. **15**Eyni ilə
bu adamların qəbul etdikləri kimi həm
saleh, həm də saleh olmayan insan-
ların diriləcəyinə dair Allaha ümid
bəsləyirəm. **16**Bu məqsədlə mən istər
Allah, istərsə də insanların qarşısında
hər zaman vicdanımın təmiz olması
üçün çalışıram. **17**Uzun illərdən sonra
millətimə yardım və hədiyyələr vermək
üçün Yerusəlimə gəldim. **18**Bununla
məşğul olarkən məni məbəddə paklan-
mış olaraq tapdılar. Ətrafımda nə
izdiham, nə də hay-küy var idi.
**19**Lakin Asiya vilayətindən bəzi Yəhu-
dilər orada idi. Onlar buraya – sənin
hüzuruna gəlməli və məndən şikayətlə-
ri varsa, ittihamlarını göstərməlidirlər.
**20**Yaxud özləri desinlər ki, Ali Şuranın
qarşısında dayandığım vaxt hansı
haqsızlığı üzə çıxartdılar. **21**Onların
qarşısında dayananda nida edərək
belə demişdim və yalnız bunda mənim
haqsız olduğumu hesab edə bilərlər:
“Bu gün mən ölülərin dirilməsi məsələ-
sinə görə önünüzdə mühakimə olunu-
ram”».

**22**İsa yolu[b] barədə dəqiq məlumatı
olan Feliks bu işi təxirə salıb dedi:
«İşiniz barədə minbaşı Lisiya gələndən
sonra qərarımı verəcəyəm». **23**Oradakı
yüzbaşıya əmr verdi ki, Paulu nəzarət
altında saxlasın, lakin sərbəstlik versin
və ona xidmət edən dostlarına mane-
çilik yaratmasın.

**24**Bir neçə gün keçəndən sonra vali
Feliks Yəhudi arvadı Drusilla ilə bir-
likdə gəlib Paulu çağırtdırdı və onun
Məsih İsaya olan imanından danış-
dıqlarına qulaq asdı. **25**Paul salehlik,
nəfsə hakim olma və gələcək mühaki-
mədən söhbət edəndə Feliks qorxuya
düşdü və dedi: «Bəsdir, indi get, imkan
olanda yenə səni çağırtdıracağam».
**26**Digər tərəfdən də Pauldan[c] rüşvət
umurdu. Ona görə tez-tez Paulu ya-
nına çağırtdırır və onunla söhbət
edirdi.

**27**İki il keçəndən sonra Feliks öz
vəzifəsini Porki Festə təhvil verdi. Fe-
liks Yəhudilərin rəğbətini qazanmaq
üçün Paulu həbsdə qoyub getdi.

### *Festin qarşısında olan məhkəmə*

**25** **1**Vilayətə çatandan üç gün son-
ra Fest Qeysəriyyədən Yerusə-
limə getdi. **2**Başçı kahinlərlə Yəhudi-
lərin nüfuzlu adamları Paulla bağlı
şikayətlərini ona açıqladı. **3**Onlara bir
yaxşılıq etsin deyə Festə yalvararaq
Paulun Yerusəlimə gətirilməsini xahiş
etdilər, çünki onu öldürmək üçün
yolda pusqu qururdular. **4**Fest cavab

a **24:14** *İsa yolunun* – hərfi tərcümədə *Yolun.*
b **24:22** *İsa yolu* – hərfi tərcümədə *Yol.*
c **24:26** *Pauldan* – bəzi əlyazmalarda *Paulu azad etmək üçün ondan.*
**24:17-18** *Həv. 21:17-28* **24:21** *Həv. 23:6*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 204



verdi: «Paul Qeysəriyyədə həbsdədir
və tezliklə özüm də oraya gedəcəyəm.
5Aranızda səlahiyyəti olanlar mənimlə
getsin və əgər bu kişi haqsızlıq edibsə,
onu ittiham etsin».

6Fest onların yanında səkkiz ya on
gündən artıq qalmadı və Qeysəriyyəyə
qayıtdı. Ertəsi gün hökm kürsüsünə
çıxıb Paulun gətirilməsini əmr etdi.
7Paul içəri girəndə Yerusəlimdən gələn
Yəhudilər onun ətrafını bürüdü və
onun barəsində dəlil-sübutsuz bir çox
ağır ittihamlar irəli sürdülər. 8Paul «nə
Yəhudilərin Qanununa, nə məbədə, nə
də qeysərə qarşı heç bir günah işlət-
məmişəm» deyərək özünü müdafiə
etdi. 9Yəhudilərin rəğbətini qazanmaq
üçün Fest Paula belə dedi: «Bu iş üzrə
mənim qarşımda mühakimənin Yeru-
səlimdə olmasını istəyirsənmi?» 10Paul
dedi: «Mən qeysərin hökm kürsüsünün
qarşısında dayanmışam. Mənim məh-
kəməm burada olmalıdır. Sən özün də
yaxşı bilirsən ki, Yəhudilərə qarşı heç
bir haqsızlıq etməmişəm. 11Əgər haq-
sızlıq etmişəmsə, ölüm cəzasına layiq
bir iş tutmuşamsa, ölümdən qaçmı-
ram. Yox, əgər bunların ittihamları
əsassızdırsa, məni onların əlinə təslim
etmək üçün heç kimin səlahiyyəti
yoxdur. Mən qeysərin məhkəməsinə
müraciət etmək istəyirəm». 12Fest öz
məsləhət şurası ilə müşavirə keçirən-
dən sonra cavab verdi: «Sən qeysərin
məhkəməsinə müraciət etmək istədiyin
üçün qeysərin yanına gedəcəksən».

### *Fest Padşah Aqrippa ilə danışır*

13Bir neçə gündən sonra padşah
Aqrippa ilə Berniki[a] Festi təbrik
etmək üçün Qeysəriyyəyə gəldi. 14Bir
müddət orada qaldılar. Fest bu ərəfə-
də Paulun işini padşaha danışdı. O
dedi: «Bir kişi var, Feliks onu məhbus
saxlayaraq gedib. 15Yerusəlimdə ol-
duğum ərəfədə Yəhudilərin başçı
kahinləri ilə ağsaqqalları onunla bağlı
şikayətlərini açıqladı və onu cəza-
landırmağımı istədi. 16Mən dedim ki,
ittiham edilən şəxsi ittihamçılarla
üzləşdirmədən, ona edilən ittihamlara
müdafiə imkanı vermədən, onlara[b]
təslim etmək Romalıların adətinə xas
deyil. 17Onlar mənimlə buraya topla-
nanda heç bir vaxt itirmədən ertəsi
gün hökm kürsüsünə çıxıb bu kişinin
gətirilməsini əmr etdim. 18Amma
ittihamçılar qalxıb danışanda mənim
gözlədiyim cinayətlərin heç biri ilə onu
təqsirləndirmədilər. 19Lakin onunla öz
dinləri barədə bir neçə məsələ qal-
dırdılar. Bunlar ölmüş və Paulun
iddiasına görə sağ olan İsa adlı bir
şəxslə bağlı məsələlərdir. 20Bunları
necə tədqiq edəcəyimdən şübhələn-
diyim üçün ondan soruşdum ki,
Yerusəlimə gedib bu iş üçün orada
mühakimə olmağa razıdır ya yox.
21Amma Paul imperatorun məhkə-
məsinə müraciət etmək və bu olana
qədər həbsdə qalmaq istədi. Mən də
onu qeysərin yanına göndərəcəyim
zamanacan həbsdə qalması barədə
əmr verdim». 22Aqrippa Festə dedi:
«Bu adama mən də qulaq asmaq
istəyirəm». Fest dedi: «Sabah qulaq
asarsan».

### *Paul padşah Aqrippanın qarşısında*

23Ertəsi gün Aqrippa ilə Berniki
təntənəli surətdə gəlib minbaşılar və
şəhərin nüfuzlu şəxsləri ilə birlikdə

a **25:13** *Berniki* – yəni padşah Aqrippanın bacısı.
b **25:16** *Onlara* – bəzi əlyazmalarda *edam olunmaq üçün onlara.*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 205



iclas otağına daxil oldu. Festin əmrinə
əsasən Paulu içəri gətirdilər. 24Fest
dedi: «Ey padşah Aqrippa və burada
bizimlə olan bütün cənablar, istər
Yerusəlimdə, istərsə də burada, bütün
Yəhudi xalqının şikayət etdiyi bu
insanı görürsünüzmü? “Bu adam daha
yaşamamalıdır!” deyə Yəhudilər hay-
küy salırdı. 25Amma mən nəticəyə
gəldim ki, bu adam ölümə layiq heç bir
iş görməyib. Lakin imperatorun məh-
kəməsinə müraciət etmək istədiyinə
görə onu göndərmək qərarına gəldim.
26Amma onun barəsində qəti bir sö-
züm yoxdur ki, cənabıma yazam. Ona
görə də onu sizin qarşınıza, xüsusən,
padşah Aqrippa, sənin qarşına çıxa-
rıram ki, bu işin istintaqından sonra
yazmağa sözüm olsun. 27Çünki bir
məhbusu imperatorun qarşısına gön-
dərəndə ona edilən ittihamları göstər-
məmək mənə məntiqsiz göründü».

26 1Aqrippa Paula dedi: «Özünü
müdafiə edə bilərsən». Onda
Paul əl hərəkəti ilə özünü müdafiəyə
başladı: 2«Padşah Aqrippa, Yəhudilə-
rin məni ittihamlandırdığı hər şeyə
görə bu gün sənin hüzurunda özümü
müdafiə edəcəyim üçün özümü xoşbəxt
sayıram. 3Çünki bütün Yəhudi adət-
ənənələrinə və mübahisələrinə yaxşı
bələdsən. Ona görə rica edirəm, mənə
səbirlə qulaq as.

4Bütün Yəhudilər bilir ki, əzəldən,
lap cavanlığımdan bəri həm öz elimdə,
həm də Yerusəlimdə necə həyat
sürmüşəm. 5Məni əvvəldən tanıyırlar,
bilirlər ki, keçmişdə dinimizin ən ciddi
təriqəti olan farisey təriqətinə necə
bağlı yaşayırdım. İstəsələr, bu barədə
şəhadət edə bilərlər. 6İndi isə Allahın
ata-babalarımıza verdiyi vədin həyata
keçməsinə ümid bağladığım üçün
burada dayanıb mühakimə olunuram.
7Xalqımızın on iki qəbiləsi də gecə-
gündüz Allaha sidq ürəkdən ibadət
edə-edə həmin şeyə ümid bəsləyir. Ey
padşah, Yəhudilər məni bu ümidə görə
ittiham edir. 8Niyə Allahın ölüləri
diriltməsi aranızda inanılmaz bir şey
sayılır?

9Doğrusu, mən buna əmin olmuş-
dum ki, Nazaretli İsanın adı əleyhinə
əlimdən gələni etməliyəm. 10Yerusə-
limdə də bunu edirdim. Başçı kahin-
lərdən aldığım səlahiyyətə əsasən nə
qədər müqəddəsi zindanlara saldırdım
və edam olunanda onların əleyhinə səs
verdim. 11Bütün sinaqoqları gəzib-
dolaşaraq onları tez-tez cəzalandırır
və öz etiqadlarına küfr etməyə məcbur
edirdim. Mən elə dəli olmuşdum ki,
onları ölkə xaricində olan şəhərlərdə
belə, təqib edirdim.

12Bu iş üçün başçı kahinlərdən al-
dığım səlahiyyət və tapşırıqla Dəməş-
qə tərəf yola çıxdım. 13Ey padşah,
günorta vaxtı yol gedirdim ki, göydən
məni və yoldaşlarımı hər tərəfdən
nurlandıran günəşdən daha parlaq bir
işıq gördüm. 14Hamımız yerə yıxıldıq.
Bir səsin mənə İbrani dilində dediyini
eşitdim: “Şaul, Şaul, niyə Məni təqib
edirsən? Bizin ucuna təpik vurmaq
sənə zərər verər”. 15Mən dedim: “Ey
Ağam, Sən kimsən?” Rəbb cavab ver-
di: “Mən sənin təqib etdiyin İsayam.
16Qalx ayağa və dur. Mən ona görə
sənə göründüm ki, səni xidmətçi və
haqqımda gördüyün, sənə göstərəcə-
yim şeylərin şahidi olmağa təyin edim.
17Səni öz xalqından, həm də başqa
millətlərin əlindən qurtaracağam. Səni
o millətlərin yanına göndərirəm ki,

**26:5** *Həv. 23:6; Flp. 3:5* **26:9-11** *Həv. 8:3; 22:4-5*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 206



18onların gözlərini açıb qaranlıqdan
işığa, Şeytanın hakimiyyətindən Al-
laha tərəf döndərəsən. Belə ki onlar
günahlarının bağışlanmasına və Mənə
iman etməklə təqdis olunanlar arasın-
da irsə nail olsun”.
19Buna görə mən, ey padşah Aq-
rippa, bu səmavi görüntüyə itaətsizlik
etmədim. 20Əvvəlcə Dəməşqin, sonra
Yerusəlimin və bütün Yəhudeya böl-
gəsinin əhalisini, başqa millətləri də
tövbə edib Allaha tərəf dönməyə və bu
tövbəyə uyğun tərzdə iş görməyə ça-
ğırdım. 21Yəhudilər buna görə məni
məbəddə tutub öldürməyə cəhd göstə-
rirdilər. 22Amma bu günə qədər Allah
mənim dayağımda durdu və bunun
sayəsində burada durub böyükdən
kiçiyə qədər hamıya şəhadət edirəm.
Mənim dediklərim peyğəmbərlərin və
Musanın əvvəlcədən xəbər verdiyi ha-
disələrdən başqa bir şey deyil. 23Onlar
bildirib ki, Məsih əzab çəkəcək və
ölümdən dirilənlərin birincisi olacaq,
həm Öz xalqına, həm də başqa mil-
lətlərə nur doğduğunu elan edəcək».
24Paul özünü bu cür müdafiə edəndə
Fest bərkdən dedi: «Paul, dəlilik
edirsən, çox oxumaqdan başın xarab
olub». 25Paul dedi: «Hörmətli Fest,
mən dəlilik etmirəm, həqiqəti və ağla
batan sözləri danışıram. 26Padşahın
bu barədə məlumatı olduğu üçün
onunla cəsarətlə danışıram. Əminəm
ki, olanların heç biri padşahın nəzə-
rindən qaçmayıb. Çünki bu işlər künc-
bucaqda görülən işlər deyil. 27Padşah
Aqrippa, sən peyğəmbərlərə inanır-
sanmı? Bilirəm ki, inanırsan». 28Aq-
rippa Paula dedi: «Bu az müddətdə
məni də inandıraraq məsihçi edəcək-
sənmi?» 29Paul dedi: «İstər az, istər
çox müddət olsun, Allahdan istəyirəm
ki, təkcə sən yox, bu gün mənə qulaq
asan hər bir adam bu zəncirlərdən
başqa mənim kimi olsun!»
30Sonra padşah, vali, Berniki və
onlarla birlikdə oturanlar qalxdı.
31Bayıra çıxanda aralarında belə da-
nışdılar: «Bu adam ölümə yaxud həbsə
layiq bir şey etmir». 32Aqrippa da Fes-
tə dedi: «Bu adam qeysərin məhkə-
məsinə müraciət etmək istəməsəydi,
azad edilə bilərdi».

### *Paul Romaya doğru yola çıxır*

27 1İtaliyaya doğru yelkən açma-
ğa qərar veriləndə Paulu və
bəzi başqa məhbusları İmperator ala-
yından Yuli adlı bir yüzbaşıya təhvil
verdilər. 2Asiya vilayətinin sahilindəki
limanlara gedən bir Edremit gəmisinə
minərək dənizlə getdik. Salonikdən
Makedoniyalı Aristarx da yanımızda
idi. 3Ertəsi gün Sidona çatdıq. Paulla
dost kimi rəftar edən Yuli ona izin
verdi ki, lazımi kömək almaq üçün
dostlarının yanına getsin. 4Oradan
yenə dənizlə getdik. Küləklər bizə əks
istiqamətdə əsdiyi üçün Kipri külək
tutmayan tərəfdən keçdik. 5Dəniz
yolu ilə Kilikiya və Pamfiliyanı keçib
Likiyanın Mira şəhərinə gəldik. 6Yüz-
başı orada İtaliyaya gedən bir İsgən-
dəriyyə gəmisi tapıb bizi o gəmiyə
mindirdi. 7Xeyli gün aşağı sürətlə,
çətinliklə üzərək Knid şəhərinin qarşı-
sına çatdıq. Külək bizə yol vermədiyi
üçün Salmoni burnundan dolanaraq
Kritin külək tutmayan tərəfi ilə getdik.
8Sahil boyunca çətinliklə irəliləyərək
Laseya şəhəri yaxınlığındakı Gözəl
Limanlar adlanan körfəzə gəlib-çat-
dıq.

**26:20** *Həv. 9:18-20, 28-29* **26:23** *Yeş. 42:6; 49:6; 1Kor. 15:20*

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 207



9Xeyli vaxt itirmişdik, hətta oruc
günü[a] də keçib-getmişdi. Artıq bu
mövsümdə dəniz yolu ilə getmək təh-
lükəli idi. Odur ki, Paul onlara xəbər-
darlıq edərək 10dedi: «Ağalar, görü-
rəm ki, bu səfər yalnız yük və gəmiyə
deyil, canımıza da çox ziyan və bəla
gətirəcək». 11Lakin yüzbaşı Paulun de-
diklərini dinləməkdənsə gəmi sükan-
çısının və sahibinin sözlərinə uydu.
12Liman qışlamaq üçün əlverişsiz idi.
Buna görə gəmidəkilərin əksəriyyəti
oradan dənizə çıxıb imkan olarsa,
Finiksə çataraq qışı orada keçirmək
qərarına gəldi; Finiks Kritdə olan,
cənub-qərbə və şimal-qərbə baxan bir
liman idi.

### *Fırtına*

13Cənubdan zəif bir külək əsməyə
başlayanda gözlədikləri anın gəldiyini
zənn edərək lövbərləri çıxartdılar. Krit
sahili boyu üzərək irəlilədilər. 14Amma
çox keçmədi ki, qurudan Evrakilon[b]
fırtınası qopdu. 15Fırtınaya düşən gə-
mi küləyə müqavimət göstərə bilmirdi,
əlacsız qaldıq və külək bizi aparırdı.
16Qavda adlı kiçik bir adanın külək
zəif tutan tərəfinə düşəndə gəminin
qayığını güclə qurtara bildik. 17Qayığı
yuxarı çəkəndən sonra gəminin kən-
dirlərini onun altından dolayıb bağla-
yaraq tədbir gördülər. Sirt körfəzində
saya oturmaqdan qorxub ləngəri aşağı
saldılar və gəmi sürüklənməyə başladı.
18Fırtına bizi bir xeyli çalxaladı. Ertəsi
gün gəminin yükünü atmağa başla-
dılar. 19Üçüncü gün isə öz əlləri ilə
gəminin təchizatını atdılar. 20Günlərlə
nə günəş, nə də ulduzlar göründü.
Fırtına da o qədər şiddətlə davam
edirdi ki, artıq bundan xilas olmağa
ümidimiz qalmamışdı.
21Adamlar uzun müddət yemək
yemədikdə Paul ortada durub dedi:
«Ağalar, gərək siz mənə qulaq asıb
Kritdən çıxmayaydınız və bu ziyana,
bu bəlaya düşməyəydiniz. 22İndi sizə
öyüd verərək deyirəm: ürəkli olun,
çünki heç biriniz canını itirməyəcək,
yalnız gəmi məhv olacaq. 23Çünki
mənsub olub ibadət etdiyim Allahın
bir mələyi bu gecə yanıma gəlib dedi:
24"Qorxma, Paul, sənin qeysərin qar-
şısına çıxmağın lazımdır. Səninlə birgə
gəmidə olanların hamısını da Allah
sənə bağışladı". 25Ay ağalar, buna
görə ürəkli olun! Allaha inandığıma
görə bilirəm ki, hər şey mənə deyilən
kimi olacaq. 26Amma bizə bir adaya
düşmək lazımdır».

### *Gəmi quruda oturur*

27On dördüncü gecə idi ki, biz
İoniya dənizində sürüklənirdik. Gecə
yarısına yaxın gəmiçilər hiss etdilər ki,
quruya yaxınlaşırlar. 28Suyun dərinli-
yini ölçəndə gördülər ki, iyirmi qo-
lacdır.[c] Bir az gedəndən sonra bir daha
ölçdülər və gördülər ki, on beş qolac-
dır. 29Qayalığa çıxmaqdan qorxaraq
gəminin dal tərəfindən dörd lövbər
atıb sabahın açılması üçün dua etdilər.
30Belə olanda gəmiçilər qaçmağa çalı-
şıb gəminin qabaq hissəsindən lövbər-
lər salmaq bəhanəsi ilə qayığı dənizə
endirdilər. 31Amma Paul yüzbaşıya və
əsgərlərə dedi: «Bunlar gəmidə qalma-
salar, siz xilas ola bilməzsiniz». 32Bun-
dan sonra əsgərlər qayığın iplərini kə-

a **27:9** *Oruc günü* – yəni Yəhudilərin sentyabr və ya oktyabr aylarında keçirdikləri günahların Kəffarə günü sayılan *Yom Kippur* bayramı.

b **27:14** *Evrakilon* – yəni şimali şərq küləyi.

c **27:28** *Qolac* – yunan dilində *orquya*, təqribən 1.85 metr.

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 208



sib onu dənizə saldılar.
33Dan yeri söküləndə Paul hamıya
yemək yeməyi təkid edərək dedi: «Bu
gün on dörd gündür ki, nigarançılıq
içindəsiniz və heç nə yemədiyinizə görə
acsınız. 34Bunun üçün sizdən xahiş
edirəm ki, yemək yeyəsiniz. Bu, xilası-
nız üçün lazımdır. Heç birinizin başın-
dan bir tük belə, əskik olmayacaq».
35Paul bunu deyəndən sonra çörək
götürdü və hamının qarşısında Allaha
şükür edərək çörəyi bölüb yeməyə baş-
ladı. 36Bundan hamı ürəklənib yemək
yedi. 37Gəmidə cəmi iki yüz yetmiş altı
nəfər idik. 38Hamı doyandan sonra
buğdanı dənizə boşaldaraq gəmini
yüngülləşdirdilər.

39Hava işıqlananda gördükləri qu-
runu tanıya bilmədilər. Amma qumsal
sahili olan bir körfəz gördülər. Qərara
aldılar ki, imkan olsa, gəmini orada
oturtsunlar. 40Lövbərləri kəsib dəniz-
də qoydular. Eyni zamanda sükanları
saxlayan kəndirləri açıb qabaq yelkəni
qaldıraraq qumsallığa tərəf yönəldilər.
41Gəmi isə dayazlıqda qum üstündə
oturdu. Gəminin burnu quma batıb
tərpənməz oldu. Arxa tərəfi isə dalğa-
ların zərbəsindən sınmağa başladı.
42Əsgərlər məhbusları öldürmək is-
təyirdi ki, heç biri üzərək qaçmasın.
43Amma Paulu xilas etmək istəyən
yüzbaşı əsgərləri bu fikirdən daşın-
dırdı. Əmr etdi ki, əvvəlcə üzməyi
bacaranlar dənizə tullanıb üzsünlər,
44sonra dalda qalanlar ya taxtalar ya
da gəminin başqa parçaları üzərində
sahilə çıxsınlar. Beləliklə, hamısı sağ-
salamat quruya çıxdı.

### *Maltada*

28 1Xilas olandan sonra öyrəndik
ki, adanın adı Maltadır.
2Oranın sakinləri bizə gözlənilməz bir
mehribanlıq göstərdi. Hava yağışlı və
soyuq olduğu üçün ocaq qalayıb
hamımızı hərarətlə qarşıladılar. 3Paul
bir dəstə çırpı götürüb ocağa atdı. O
zaman istinin təsirindən bir gürzə
çıxıb onun əlinə yapışdı. 4Oranın
sakinləri Paulun əlinə ilanın yapış-
dığını görəndə bir-birinə dedilər:
«Demək bu adam qatildir. Dənizdən
xilas olsa da, ədalət ilahəsi onu ya-
şamağa qoymur». 5Amma Paul əlini
silkələyib ilanı oda ataraq heç bir
xətər görmədi. 6Camaat gözləyirdi ki,
Paulun bədəni şişəcək yaxud birdən-
birə yıxılıb öləcək. Amma çox göz-
lədilər, ona heç nə olmadığını görəndə
fikirlərini dəyişib dedilər: «Bu bir
allahdır».

7O yerin yaxınlığında malikanə var
idi ki, ora adanın baş məmuru Publi
adlı bir şəxsin idi. Bu adam bizi öz
evində qəbul etdi və üç gün bizə meh-
ribanlıqla qonaqpərvərlik göstərdi. 8O
ərəfədə Publinin atası qızdırma və
qanlı ishal üzündən xəstə yatırdı. Paul
xəstənin yanına gəldi və dua edərək
əllərini onun üzərinə qoyub sağaltdı.
9Bu hadisədən sonra adadakı qalan
xəstələr də gəlib şəfa tapdı. 10Bizə
çoxlu bəxşiş verərək şərəfləndirdilər.
Biz dənizə çıxanda isə bizə lazım olan
şeyləri gəmiyə yüklədilər.

### *Romaya çatanda*

11Üç aydan sonra qışı adada keçir-
miş, başında Əkiz Tanrılar heykəlini
gəzdirən bir İsgəndəriyyə gəmisi ilə
dənizdən yelkən açdıq. 12Sirakuza
şəhərinə çatıb üç gün orada qaldıq.
13Oradan yolumuza davam edərək
Regiuma gəldik. Ertəsi gün əsməyə
başlayan cənub küləyinin köməyi ilə

Acts Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:15 Page 209



iki günə Puteoliyə çatdıq.
14Orada
rastlaşdığımız imanlı bacı-qardaşlar
bizdən xahiş etdilər ki, onların yanında bir həftə qalaq.

Sonra Romaya çatdıq.
15Bizdən
xəbər tutan Romadakı imanlı bacı-qardaşlar bizi qarşılamaq üçün Appi
Bazarına və Üç Mehmanxanaya qədər
gəldilər. Paul onları görəndə Allaha
şükür edib ürəkləndi.
16Romaya gələndə Paula[a] izin verildi ki, bir əsgərin
nəzarəti altında tək yaşasın.

### *Paulun Romada etdiyi işlər*

17Üç gün sonra Paul Yəhudilərin
orada olan başçılarını toplantıya dəvət
etdi. Onlar bir yerə yığılandan sonra
Paul onlara belə dedi: «Soydaşlar,
xalqımıza və ata-babalarımızın adət-ənənəsinə zidd heç nə etmədiyim halda
Yerusəlimdə həbs edilib Romalılara
təslim edildim.
18Onlar məni sorğu-suala çəkəndən sonra azad etmək
istədilər. Çünki ölüm cəzasına layiq bir
təqsirim yox idi.
19Amma Yəhudilər
buna qarşı çıxanda məcbur olub
qeysərin məhkəməsinə müraciət etmək
istədim, lakin öz millətimi heç nədə
ittihamlandırmaq istəmirdim.
20Bu
səbəbdən sizi buraya görüşüb söhbət
etmək üçün çağırmışam. Axı mən
İsrailin ümidi uğrunda belə zəncirlənmişəm».
21Onlar Paula dedi: «Yəhudeyadan sənin barəndə nə məktub
almışıq, nə də buraya gələn soydaşlardan kimsə sənin barəndə bizə xəbər
gətirərək pis bir söz deyib.
22Biz sənin
fikirlərini sənin özündən eşitmək istəyirik. Çünki hər yerdə bu təriqətə qarşı
çıxıldığını bilirik».

23Bir gün təyin edib, həmin gün daha böyük kütlə ilə Paulun qaldığı yerə
gəldilər. Paul səhərdən axşamacan
Allahın Padşahlığından şəhadət edərək onlara açıqlama verdi, həm Musanın Qanunundan, həm də Peyğəmbərlərin yazdıqlarından onları İsaya
inandırmağa çalışdı.
24Bəziləri onun
sözlərinə inandı, bəziləri isə inanmadı.
25Bir-birləri ilə razılığa gəlməyəndə
Paulun bu son sözlərinə qulaq asıb
ayrıldılar: «Müqəddəs Ruh Yeşaya
peyğəmbərin vasitəsilə ata-babalarınıza bu gözəl sözü dedi:

26“Get bu xalqa bunu çatdır:
‹Eşitdikcə eşidəcəksiniz, amma
anlamayacaqsınız,
Gördükcə görəcəksiniz, amma
qanmayacaqsınız.
27Çünki bu xalqın ürəyi kütləşdi,
Qulaqları ağır eşitdi,
Gözlərini yumdular ki,
Gözləri ilə görməsinlər,
Qulaqları ilə eşitməsinlər,
Ürəkləri ilə anlamasınlar
Və Mənə sarı dönməsinlər ki,
Mən onlara şəfa verim›”.

28İndi bilin ki, Allahın verdiyi bu xilas
başqa millətlərə göndərilib və onlar
buna qulaq asacaq».
29[b]

30Paul düz iki il kirayə tutduğu evdə
qalıb yanına gələnlərin hamısını qəbul
edirdi.
31Heç bir maneə olmadan tam
bir cəsarətlə Allahın Padşahlığını vəz
edir və Rəbb İsa Məsihlə bağlı həqiqətləri öyrədirdi.

---

a **28:16** *Paula* – bəzi əlyazmalarda *yüzbaşı məhbusları zabitə təhvil verdi.*

b **28:28-29** *Asacaq* – bəzi əlyazmalarda *asacaq».* **29** *Paulun bu sözündən sonra Yəhudilər bir-biri ilə çox çəkişdi və getdi.*

**28:19** *Həv. 25:11* **28:26-27** *Yeş. 6:9-10; Mat. 13:14-15; Mark 4:12; Luka 8:10; Yəh. 12:39-40*